**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**

*Azərbaycanın elm və*
*mədəniyyət xadimləri*

# SAYALI ALLAHVERDİ QIZI SADIQOVA

***BİOBİBLİOQRAFİK GÖSTƏRİCİ***

**Bakı – "Elm" – 2020**

*Azərbaycan Milli Elmlər Akademiyası*
*Nəsimi adına Dilçilik İnstitutunun Elmi Şurasının*
*17 iyun 2020-ci il tarixli qərarı ilə nəşr olunur.*

Redaktor: *akademik* **Möhsün Nağısoylu**
Tərtibçi: *dosent* **Şəbnəm Həsənli-Qəribova**

**Sayalı Allahverdi qızı Sadıqova. Biobiblioqrafik göstərici.** Bakı , "Elm", 2020. – 156 s.

ISBN 978-9952-523-28-5

Biobiblioqrafik göstəricidə filologiya elmləri doktoru, professor Sayalı Sadıqovanın həyatı və elmi fəaliyyətinin əsas tarixləri, terminologiya, dil tarixi, müasir Azərbaycan dili, bədii dil və üslubiyyat, leksikoqrafiya sahələrində nəşr olunmuş kitab, məqalə və məruzələri, həmçinin redaktə etdiyi əsərlər və elmi-pedaqoji fəaliyyəti öz əksini tapmışdır.

© "Elm" nəşriyyatı, 2020

## Azərbaycan Respublikasının Dövlət Dil Komissiyasının yeni tərkibinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Qədim tarixi keçmişin izlərini özündə yaşadan və milyonlarla azərbaycanlının ünsiyyət vasitəsi olan Azərbaycan dili xalqımızın misilsiz mənəvi sərvəti, milli varlığımızın və dövlət müstəqilliyimizin başlıca rəmzlərindəndir. Ən dərin fikirləri ən incə çalarlarınadək ifadə qüdrətinə malik dilimiz öz kamilliyi və zənginliyinə görə dünya dilləri içərisində layiqli yerini bu gün də qoruyub saxlayır.

Azərbaycan dilinin dövlət dili olaraq qorunması və işləkliyinin təmin edilməsi müstəqil dövlət quruculuğunun prioritet prinsipləri sırasındadır. Ötən illər ərzində Azərbaycan dilinin rəsmi statusunun təminatı və tətbiqinin təkmilləşdirilməsinə dair müxtəlif qanun, fərman və sərəncamlar təsdiq edilmişdir. Dövlət dilinin həyatın hər bir sahəsində qeyd-şərtsiz işləkliyinin genişləndirilməsini və saflığının qorunmasını nəzərdə tutan bu sənədlər ölkədə dövlət dilinin tətbiqinin normativ hüquqi əsaslarını və icra mexanizmini tam müəyyən etmişdir. Bütün bunlar Azərbaycan dilinə məhz dövlətçiliyin əsas atributlarından biri kimi yanaşmanın bariz nümunəsi, dövlətin yüksək diqqət və qayğısının aydın təzahürüdür. Atılan addımlar ədəbi dilin daha da zənginləşməsi və tətbiq dairəsinin genişlənməsi baxımından son dərəcə əhəmiyyətli olmuş-

dur.Eyni zamanda, qloballaşma proseslərinin geniş vüsət aldığı müasir dövrdə texnoloji yeniliklərin insanlar tərəfindən sürətlə mənimsənilməsi və maneəsiz informasiya mübadiləsi imkanlarının artması ana dilinin potensial imkanlarından lazımınca istifadəsində bəzi çətinliklər yaratmaqdadır. Mövcud şərait milli ideya – azərbaycançılıq məfkurəsi işığında dövlət dilinin saflığının qorunması və ədəbi dildən düzgün istifadə məsələlərinin daim diqqət mərkəzində saxlanılmasını zəruri edir. Bu istiqamətdə həyata keçiriləcək fəaliyyətin ardıcıllığının tənzimlənməsini və Azərbaycan dilinin işlənmə imkanlarının daha da genişləndirilməsini təmin etmək məqsədilə Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

1. Azərbaycan Respublikasının Dövlət Dil Komissiyası aşağıdakı yeni tərkibdə təsdiq edilsin:

**Komissiyanın sədri**

İlham Əliyev – Azərbaycan Respublikasının Prezidenti

**Komissiya sədrinin müavinləri**

Mehriban Əliyeva – Azərbaycan Respublikasının Birinci vitse-prezidenti

Ramiz Mehdiyev – Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəri

Akif Əlizadə – AMEA-nın prezidenti

Anar Rzayev – Azərbaycan Yazıçılar Birliyinin sədri

**Komissiyanın üzvləri**

Vasif Talıbov – Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri, Azərbaycan Respublikası Milli Məclisinin deputatı

Elçin Əfəndiyev – Azərbaycan Respublikası Baş nazirinin müavini

Hacıbala Abutalıbov – Bakı şəhər İcra Hakimiyyətinin başçısı

Mikayıl Cabbarov – Azərbaycan Respublikasının təhsil naziri

Əbülfəs Qarayev – Azərbaycan Respublikasının mədəniyyət və turizm naziri

Əli Həsənov – Azərbaycan Respublikası Prezidentinin İctimai-siyasi məsələlər üzrə köməkçisi – şöbə müdiri

İsa Həbibbəyli – AMEA-nın vitse-prezidenti, AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun direktoru, Azərbaycan Respublikası Milli Məclisinin Təhsil komitəsinin sədri, AMEA-nın həqiqi üzvü

Rafael Hüseynov – Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin direktoru, Azərbaycan Respublikası Milli Məclisinin Mədəniyyət komitəsinin sədri, AMEA-nın həqiqi üzvü

Kamal Abdullayev – Azərbaycan Dillər Universitetinin rektoru, AMEA-nın həqiqi üzvü

Nizami Cəfərov – Azərbaycanda Atatürk Mərkəzinin müdiri, Azərbaycan Respublikası Milli Məclisinin deputatı, AMEA-nın həqiqi üzvü

Vasim Məmmədəliyev – Bakı Dövlət Universitetinin İlahiyyat fakültəsinin dekanı, AMEA-nın həqiqi üzvü

Teymur Kərimli – AMEA Humanitar Elmlər Bölməsinin akademik-katibi, AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun direktoru, AMEA-nın həqiqi üzvü

Möhsün Nağısoylu – AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun direktoru, AMEA-nın həqiqi üzvü

Muxtar İmanov – AMEA-nın Folklor İnstitutunun direktoru, AMEA-nın həqiqi üzvü

Əbülfəz Quliyev – AMEA Naxçıvan Bölməsinin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü

Arif Alışanov – "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin sədri

Mövlud Süleymanlı – xalq yazıçısı

Sabir Rüstəmxanlı – xalq şairi

Adil Babayev – Azərbaycan Dillər Universitetinin kafedra müdiri, professor

Mübariz Yusifov – Gəncə Dövlət Universitetinin filologiya fakültəsinin dekanı, professor

Elbrus Əzizov – Bakı Dövlət Universitetinin professoru

Buludxan Xəlilov – Azərbaycan Dövlət Pedaqoji Universitetinin professoru

Aydın Ələkbərov – filologiya elmləri doktoru, professor

İsmayıl Məmmədov – AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun şöbə müdiri, filologiya elmləri doktoru, professor

Sayalı Sadıqova – AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun şöbə müdiri, filologiya elmləri doktoru, professor

Afaq Vəliyeva – Tərcümə Mərkəzinin direktoru

Əflatun Amaşov – Azərbaycan Mətbuat Şurasının sədri, Azərbaycan Respublikası Milli Məclisinin deputatı

Aydın İbadov – Azərbaycan Respublikasının Dövlət Reklam Agentliyinin direktoru

2. Azərbaycan Milli Elmlər Akademiyası aidiyyəti qurumlarla birlikdə Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da yaxşılaşdırılması ilə bağlı tədbirlər planını üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

3. “Azərbaycan Respublikası Dövlət Dil Komissiyasının tərkibinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 4 iyul tarixli 766 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qa-

nunvericilik Toplusu, 2001, №7, maddə 500; 2006, №9, maddə 743) ləğv edilsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 13 noyabr 2017-ci il**

## YARADICILIQ İSTİQAMƏTLƏRİ

Ömür səhifələri ilbəil vərəqləndikcə, insan həyat yolu adlandırılan zaman anlayışının dəyərini daha dərindən dərk etməyə başlayır, mənalı və dəyərli həyat yolu keçirən şəxsiyyətlərin elm, xalq üçün önəmli olduğunu daha çox anlayırsan. Ötən illər ərzində keçdiyi şərəfli ömür yolu ilə gələcək nəsillərə örnək ola bilən, məhsuldar elmi yaradıcılığı və fəaliyyəti ilə seçilən professor Sayalı Sadıqova belə ziyalılardandır. Filologiya elmləri doktoru, professor Sayalı Sadıqova 1960-cı ildə ən qədim tarixə malik olan Qərbi Azərbaycanın Göyçə mahalında, Krasnoselo rayonunun Cil kəndində ziyalı ailəsində anadan olmuşdur. 1967-ci ildə Cil kənd orta məktəbində birinci sinfə getmiş, 1977-ci ildə həmin məktəbi əla qiymətlərlə bitirmişdir. Həmin il Azərbaycan Dövlət Pedaqoji Universitetinin (APİ) filologiya fakültəsinə daxil olmuşdur. Təhsil aldığı illərdə bacarığı, təşkilatçılığı ilə tələbə kollektivi arasında fərqlənmiş, İnstitut Həmkarlar təşkilatının sədri, Tələbə Elmi Cəmiyyətinin sədr müavini olmuşdur. İnstitutda keçirilən elmi konfranslarda fəal iştirak etmişdir. İkinci kursda oxuduğu illərdə ilk məqaləsi nəşr olunmuşdur. 1981-ci ildə həmin fakültəni fərqlənmə diplomu ilə bitirmiş və elmə olan dərin marağı onu tədqiqat yoluna gətirmişdir. 1981-1984-cü illərdə Azərbaycan dili ixtisası üzrə AMEA Nəsimi

adına Dilçilik İnstitutunun Terminologiya şöbəsinin aspirantı olmuşdur. Elmi fəaliyyətə 1984-cü ildə AMEA Nəsimi adına Dilçilik İnstitutunda kiçik elmi işçi vəzifəsi ilə başlamışdır. 1986-cı ildə “Azərbaycan ədəbi dilində termin-söz birləşmələri” mövzusunda namizədlik dissertasiyasını 26 yaşında uğurla müdafiə etmişdir. Sonrakı illərdə də dilçiliyin müxtəlif sahələrinə, xüsusilə, terminologiya, leksikologiya, dil tarixi, dil nəzəriyyəsi və dil əlaqələri ilə bağlı araşdırmalarını davam etdirmiş, sanballı məruzələrlə müxtəlif elmi konfranslarda çıxış etmişdir. Azərbaycan dilinin leksik sistemi, lüğət tərkibi, söz və terminin mənaları, məna qrupları, mənşəcə növləri, leksikoqrafiya məsələləri onun əsərlərində geniş şəkildə tədqiq edilir. Terminologiya və onun müxtəlif nəzəri problemlərinə həsr edilən məqalələri elmi jurnallarda və toplularda dərc olunur. S.A.Sadıqova bu sahədəki fəaliyyətini davam etdirmək məqsədi ilə 1994-1997-ci illərdə Nəsimi adına Dilçilik İnstitutunda əyani doktoranturaya qəbul olmuşdur. 1997-ci ildə doktorluq işi müzakirə olunaraq müdafiəyə buraxılmış və yenidən Terminologiya şöbəsində elmi fəaliyyətini davam etdirmişdir. 1999-cu ildə apardığı səmərəli axtarışların nəticəsi olaraq “Azərbaycan dilində fizika-riyaziyyat terminologiyasının formalaşması və inkişafı” mövzusunda doktorluq dissertasiyasını uğurla müdafiə etmişdir. Fizika-riyaziyyat terminlərinin inkişaf tarixi, yaranma mənbələri, üsulları, beynəlxalq termin-

lər, onların terminoloji lüğətlərdə verilməsi qaydaları tədqiq edilmişdir. Həmin sahə ilə bağlı "İzahlı fizika-riyaziyyat terminləri lüğəti"(Bakı, Elm, 1998) nəşr olunmuşdur.

S.Sadıqova 2000-ci ildən Azərbaycan Milli Elmlər Akademiyasının Nəsimi adına Dilçilik İnstitutunda Terminologiya şöbəsinin müdiridir. 2001-ci ildən AMEA Rəyasət Heyəti yanında Terminologiya Komissiyasının sədr müavini və məsul katibi, 2012-ci ildən Nazirlər Kabineti yanında Terminologiya Komissiyasının sədr müavinidir. Bu illərdə Terminologiya Komissiyasının qərarı ilə 140-a qədər terminoloji lüğət nəşr olunmuşdur. Elmin müxtəlif sahələrinin elmi dilinin formalaşmasında və standartlaşmasında bu lüğətlərin mühüm əhəmiyyəti vardır. Elmi üslubun inkişafı ədəbi dilin inkişafına təkan verir. Bununla bağlı alim tərəfindən ədəbi dilin qorunması və inkişafı istiqamətində bir sıra yeni təkliflər hazırlanmışdır. 2002-ci ildən AMEA RH yanında Terminologiya Komissiyasının xətti ilə nəşr olunan "Terminologiya məsələləri" toplusunun redaktorudur. Elmi yaradıcılığı çoxsahəlidir. Tədqiqatları ümumi dilçilik, terminologiya, ədəbi dil tarixi, tətbiqi dilçilik, onomastika və s. sahələrlə bağlıdır.

Alimin elmi yaradıcılığı ilə tanış olanda onun məhsuldar fəaliyyətinə qibtə edilir. İstedadlı alim, publisist, neçə-neçə monoqrafiyaların, elmi məqalələrin müəllifi S.Sadıqovanın elmi fəaliyyətinin əsas isti-

qamətini Azərbaycan dilində terminologiyanın təşəkkülü, formalaşması və inkişafının öyrənilməsi, tədqiqi təşkil edir. Dilçiliyin son illərdəki inkişafının mühüm nailiyyətlərindən biri terminologiyanın hazırda dilçiliyin müstəqil bir sahəsinə çevrilməsidir. Bu baxımdan terminologiyanın aktual problemlərinin tədqiqində və inkişafında, nəzəri problemlərinin araşdırılmasında S.A. Sadıqovanın mühüm xidmətləri vardır. Müəllifin "Azərbaycan dilində fizika-riyaziyyat terminologiyasının formalaşması və inkişafı"(B., "Elm", 1997),"Azərbaycan dili terminologiyasının nəzəri problemləri" (B., "Elm", 2002), "Azərbaycan dilində terminologiyanın təşəkkülü və inkişafı" (B., "Elm", 2005), "Терминологические словосочетания в Азербайджанском литературном языке" (Б., "Елм", 2007), "Müasir Azərbaycan ədəbi dilində termin yaradıcılığı prosesi" (B., "Elm", 2010), "Azərbaycan dilinin terminologiyası "(B., Elm, 2011), üç cildlik " Dilciliyin nəzəri problemləri"(B., Elm, 2010-Ic; 2011-IIc; 2012-IIIc;) "Azərbaycan dilində terminologiyanın standartlaşdırma formaları" (Bakı, Elm, 2015), "Müstəqillik illərində terminologiyanın inkişafı"(Bakı, Elm, 2016)" "Azərbaycan Xalq Cümhuriyyəti və milli ədəbi dilin inkişaf tarixi"(1918-2018;Bakı,"Avropa", 2018) , "Azərbaycan ədəbi dilinin zənginləşmə mənbələri və inkişafı"(Bakı, Elm, 2020, 416 səh. həmmüəllif) əsərləri dilçilik elminə qiymətli töhfədir. Görkəmli alimin Azərbaycan dilçiliyinin aktual prob-

lemləri ilə bağlı 26 monoqrafiyası, 340-dan artıq elmi məqaləsi nəşr edilmişdir. Bu əsərlərin bir qismi Azərbaycanda, bir qismi isə xarici ölkələrdə nəşr edilmişdir. Alimin üç cildlik "Dilçiliyin nəzəri problemləri", "Azərbaycan ədəbi dilinin zənginləşmə mənbələri və inkişafı", "Azərbaycan dilinin terminologiyası" və s. kitabları milli dilçilik xəzinəsinin ən kamil və dəyərli incilərindəndir. Bu əsərlərdə elmin, texnikanın inkişafının müasir mərhələsində terminologiyanın formalaşması, terminlərin yaranma mənbələri, mənşəyi və yaranma prosesi ilə bağlı aktual problemlər nəzəri aspektdə araşdırılmışdır. Monoqrafiyalarda qoyulan problemlər-terminlərin mahiyyəti, dilin leksik sistemində yeri, terminlərin yaranma prosesi, yaranma yolları, struktur-semantik xüsusiyyətləri, terminlərin terminoloji lüğətlərdə əksi, verilmə prinsipləri və s. məsələlər öz aktuallığı ilə diqqəti cəlb edir.

Professor Sayalı Sadıqovanın elmi yaradıcılıq diapazonu olduqca geniş və əhatəlidir. Bu əsərlərdə ədəbi dilin inkişafı, türk dillərində ortaq terminologiya, söz yaradıcılığı prosesi, dilin zənginləşmə mənbələri, müasir mərhələdə terminologiyanın formalaşması, terminlərin yaranma üsulları, mənşəyi ilə bağlı aktual problemlər zəngin faktlarla araşdırılmışdır. Monoqrafiyalarında qoyulan problemlər- terminlərin mahiyyəti, terminlərin təşəkkül və formalaşma tarixi, dilin leksik sistemində yeri, terminlərin yaranma prosesi, yaranma yolları, struktur-semantik xüsusiyyətləri,

terminlərin terminoloji lüğətlərdə əksi, verilmə prinsipləri, ədəbi dilin zənginləşmə mənbələri, inkişafı və s. məsələlər öz aktuallığı ilə diqqəti cəlb edir. Dilin lüğət tərkibinin inkişafının müasir mərhələsində terminlərin rolu, terminyaratmanın yolları, termin yaradıcılığının istiqamətləri, terminlərin yaranma mənbələri, dilin lüğət tərkibinin tənzimlənməsi və onların nəzəri məsələlərini özündə əks etdirən tədqiqatları terminologiyanın inkişafına təkan verir. Terminologiyanın nəzəri məsələlərindən bəhs edərkən müəllif müasir dilçilikdə mübahisəli olan məsələlərə öz münasibətini bildirərək, məntiqi cəhətdən onları təhlil etmişdir. Tədqiqatçı doğru olaraq terminologiyada müxtəlif terminlərlə verilən – "terminoloji sistem", "terminologiya", "dublet terminlər", "sinonim terminlər", "paralel terminlər" və onların işlənmə səbəblərini aydınlaşdıraraq semantikasını dəqiqləşdirmişdir. Onun yaradıcılığında termini ümumişlək sözlərdən fərqləndirən cəhətlər, terminin mahiyyəti, anlayışın definitivləşməsi, nitq hissələrinin terminləşməsi kimi məsələlər nəzəri cəhətdən təhlil edilmişdir. Hazırkı dövrdə terminoloji sistemə daxil olan leksik vahidlərin bütövlükdə monoqrafik şəkildə tədqiq olunması, onların yaranma tarixinin müəyyənləşdirilməsi, etimoloji izahının verilməsi əhəmiyyətli dilçilik problemi olduğu qədər də mürəkkəbdir. Müəllifin Azərbaycan dilçiliyinin ən aktual problemlərinə həsr olunmuş araşdırmalarında terminlərin yaranma qaynaqları, tə-

şəkkülü, formalaşması və inkişafı məsələləri tarixi aspektdə öz həllini tapmışdır. Xüsusilə, Azərbaycan dilçilik tarixində aktual bir problemin-elmi dilin inkişaf tarixi diaxronik səpkidə araşdırılmışdır. S.Sadıqovanın "Azərbaycan dilində terminologiyanın təşəkkülü və inkişafı" (Bakı, "Elm", 2005, 348 s.) əsərində Azərbaycan dilində terminologiyanın təşəkkülü, formalaşması və inkişafı müxtəlif istiqamətlərdən tədqiq edilmişdir. Azərbaycan elminin inkişaf tarixinə ümumşərq kontekstində yanaşılaraq Azərbaycan terminologiyasının təşəkkülü, formalaşması və inkişaf mərhələləri, habelə terminologiyanın zənginləşmə mənbələri, nizama salınma qaydaları, dilçilik tariximiz üçün maraq doğuran məsələlər öz elmi həllini tapmışdır. Bu cəhətdən elmlərin inkişafında böyük rolu olan yunan və Şərq alimlərinin əsərləri təhlil edilmiş və Azərbaycan dilində də elmin inkişaf tarixinin qədimliyi əsaslandırılmışdır. Dünya dillərinin əksəriyyətində olduğu kimi Azərbaycan dilində və bütövlükdə türk dillərində terminologiyanın formalaşması tarixi çox qədim dövrlərlə bağlanılır. Cəmiyyətin tarixində baş verən bütün dəyişikliklərin tarixi hadisə və proseslərin dildə əks olunması, orada iz qoyması, xalqın dilinin onun özü qədər qədim olması əsaslandırılmışdır. Monoqrafiyada terminologiyanın təşəkkülü və inkişafı mərhələləri müəyyənləşdirilərkən, müəllif doğru olaraq qeyd edir ki, VI-VII əsrlərdə əlverişli tarixi şərait Azərbaycan dilində elmi dilin təşəkkülünə zəmin yaratmışdır. Bu baxımdan müəllif tərəfindən terminologiyanın təşəkkül və inkişaf

mərhələlərini özündə əks etdirən dövrləşdirmələr verilmişdir.

Müasir Azərbaycan ədəbi dilində termin yaradıcılığı prosesi alim tərəfindən tədqiq olunmuşdur. (Sadıqova S. Müasir Azərbaycan ədəbi dilində termin yaradıcılığı prosesi, Bakı, "Elm", 2010, 210 səh.) Tədqiqatda Azərbaycan dilində müasir dövrdə termin yaradıcılığının istiqamətləri müəyyənləşdirilir, dildə meydana gələn proseslər izlənilir, yeni terminlərin yaranma mənbələri, Avropa dillərindən Azərbaycan dilinə keçən terminoloji alınmaların xüsusiyyətləri müəyyənləşdirilir, müasir terminologiyada baş verən köklü dəyişikliklər ictimai-siyasi və tarixi şəraitə uyğun olaraq araşdırılır. Müstəqillik illərində Azərbaycan ədəbi dilinin terminologiyasının nəzəri cəhətdən spesifik cəhətləri təhlil edilir, yeni istiqamətlərin, meyillərin yaranması əsaslandırılır. Bununla da monoqrafiyada Azərbaycan dilində terminologiyanın inkişaf meyilləri müəyyənləşdirilir, termin yaradıcılığının mənbə və üsulları dəqiqləşdirilir, leksik-semantik, morfoloji, sintaktik və kalka yolu ilə yaranan yeni terminlərin xüsusiyyətləri, səciyyəvi cəhətləri təyin edilir, alınma terminlərin dilin lüğət tərkibindəki yeri, leksik-semantik və struktur-qrammatik xüsusiyyətləri aydınlaşdırılır, alınmaların mənimsənilmə prosesi, ümumən müstəqillik dövründə leksikoqrafik işlərin inkişafının ümumi cəhətləri təhlil edilir.

S. Sadıqovanın yaradıcılığında terminologiyanın nəzəri problemləri linqvistik istiqamətdə tədqiq edilmişdir. (Azərbaycan dili terminologiyasının nəzəri problemləri. Bakı, "Elm", 2002, 230 səh.) Bu əsərdə terminlərin mahiyyəti və definitivləşməsi, Azərbaycan dilində terminlərin yaranma prosesi, beynəlmiləl terminlər anlayışı, onların alınma yolları, mənimsənilməsi, struktur-semantik xüsusiyyətləri nəzəri aspektdə təhlil edilmişdir.

S.Sadıqovanın "Azərbaycan dilinin terminologiyası" ( Bakı, "Elm", 2011, 378 səh.) monoqrafiyasında terminologiyanın spesifik xüsusiyyətləri, ümumi ədəbi dilin leksikasında terminlərin yeri, termin yaradıcılığı prosesi, terminoloji sistemlərin formalaşmasının məntiqi-linqvistik əsasları araşdırılmışdır. Əsər elmi-nəzəri məsələlərin əhatə dairəsinin genişliyi ilə seçildiyi kimi, terminologiyanın müasir inkişaf istiqamətlərini müəyyənləşdirmək baxımından da öz aktuallığı ilə diqqəti cəlb edir. Terminologiyanın nəzəri məsələlərindən bəhs edərkən müəllif müasir dilçilikdə mübahisəli olan məsələləri dəqiqləşdirmiş, məntiqi cəhətdən onları təhlil etmişdir. Monoqrafiyada terminologiyanın spesifik xüsusiyyətləri, ümumi ədəbi dilin leksikasında terminlərin yeri, elm sahələrində termin yaradıcılığı prosesi, terminoloji sistemlərin formalaşmasının məntiqi-linqvistik əsasları, terminologiyanın müasir inkişaf istiqamətləri araşdırılmışdır. Xüsusilə, termin yaradıcılığının semantik, morfoloji,

sintaktik və kalka üsulları ətraflı şəkildə tədqiq edilmiş, faktiki materiallarla geniş izahı verilmişdir. Terminlərin alınmasını yaradan səbəblər, alınma terminlərin yaranma mənbələri, terminlərin alınma yolları aydınlaşdırılmış, Azərbaycan dilində alınma terminlər mənşəyinə görə qruplaşdırılmışdır. Tədqiqatda beynəlmiləl terminlər, onların struktur-semantik xüsusiyyətləri, qoşa terminlər, terminologiyada alınmaların leksik-funksional paralelliyi, Azərbaycan dilində alınma terminlərin semantikası məsələləri tədqiq edilir. Deformativ və konservativ termin elementlər fərqləndirilərək, onların hər birinin izahı verilir, Azərbaycan dilində işlənən termin elementlərin işlənmə xüsusiyyətləri aydınlaşdırılır. Azərbaycan dilinin daxili imkanları əsasında yaranan terminlərin terminoloji bazanın əsas hissəsini təşkil etməsi, terminin spesifik əlamətləri, mahiyyəti, definitivləşməsi, Azərbaycan dilində terminlərin yaranma yolları, dillərin qarşılıqlı zənginləşməsində alınmalar, beynəlmiləl və alınma terminlər nəzəri aspektdə tədqiqata cəlb edilmişdir. Milli termin yaradıcılığı prosesinin ümumi ədəbi dilə əsaslanması, ümumxalq dilinin termin yaradıcılığı üçün münbit mənbə sayılması, termin yaradıcılığının spesifik xüsusiyyətləri, terminlərin ümumi ədəbi dilin leksikasında yeri, terminoloji sistemlərin formalaşmasının məntiqi-linqvistik əsasları və terminlərin yaranma yolları araşdırılmışdır.

Tədqiqatda Azərbaycan dili ilə müxtəlif dillər arasındakı əlaqələr yeni istiqamətdə təhlil edilmişdir. Rus dili vasitəsilə Avropa dillərindən terminlərin alınma yolları, alınma prosesinin dinamikası, alınma terminlərin semantik cəhətdən dilimizdə dəyişməsi xüsusiyyətləri, semantik evolyusiya ilə məna və anlayışların formalaşması arasında olan uyğunluqlar müəyyənləşdirilmişdir. Azərbaycan dilçiliyində ədəbi dilin lüğət tərkibində işlənən alınma terminlərin leksik-semantik, struktur-qrammatik, milli terminologiyanın formalaşmasında funksional xüsusiyyətləri, mənşəyi, alınma prosesinə təsir göstərən amillər, onların inkişaf istiqamətləri, ümumişlək leksikaya cəlb olunması, mənimsəmə prosesi və mərhələləri, lüğət tərkibinə təsiri, kəmiyyət və keyfiyyət dəyişiklikləri, eyni mənşədən yaranıb formaca dəyişən morfemlərin genetik əlaqəsi küll halında, sistem şəkildə tədqiq olunmuşdur. Rus mənşəli alınma terminlərin leksik-semantik xüsusiyyətləri, bilinqvizm şəraitində Azərbaycan və rus dillərinin funksional və daxili struktur təsirləri, o cümlədən dil əlaqələri, qarşılıqlı təsirlə bağlı bir sıra problemlərin nəzəri interpretasiyası tədqiqata cəlb olunur. Bu prosesdə yalnız mənimsənilmə prosesinin yekunu olub normativ cəhətdən təsbit edilmiş terminlər təhlil obyektidir. Elmi-texniki tərəqqi ilə bağlı olaraq dilə daxil olan alınmaların davam etməsi prosesi onların daima tədqiqini zəruri edir. Alınma terminlər yaranma mənşəyinə, elm sahələrində işlənmə xarakterinə və

mənimsənilmə prosesindən asılı olaraq müvafiq növlərə ayrılaraq müqayisəli şəkildə təhlil edilmişdir. Terminoloji qat öz mahiyyətinə, işlənmə sahələrinə və xüsusiyyətlərinə görə ümumi lüğət tərkibinə daxil olan söz qruplarından, xüsusilə ümumişlək dil vahidlərindən öz xüsusi mövqeyinə, funksiyasına, mahiyyətinə və roluna görə fərqləndirilir. Leksikanın bu xüsusi qatı bir çox məqamlarda özünəməxsus semantikası, sistemliliyi, strukturu və spesifikası ilə ümumişlək leksikadan fərqli istiqamətdə təhlil edilir. Bu əsər AMEA Rəyasət Heyətində ilin nailiyyəti kimi yüksək səviyyədə qiymətləndirilmişdir.

Azərbaycan dilində terminologiyanın standartlaşdırma formaları (Bakı, Elm, 2015, 500 səh.) monoqrafiyasında Azərbaycan dili terminologiyası linqvistik cəhətdən geniş dairədə tədqiq olunmuşdur. İlk dəfə olaraq Azərbaycan terminologiyasının struktur-genetik xarakteristikası (elmi dilin spesifik cəhətləri; terminin spesifikası; elmi dilin leksik tərkibi); terminologiyada semantik proseslər (çoxmənalılıq, omonimlik, antonimlik, sinonimlik, xüsusi semantik proseslər, hiponimiya hadisəsi); Azərbaycan dilində termin yaradıcılığı (termin yaradıcılığının üsulları; transterminləşmə, transpozisiya, terminalma və s.); terminologiyanın nizama salınması (terminologiyanın nizama salınmasının zəruriliyini doğuran səbəblər; sahə terminologiyasının nizama salınması; terminlərin seçilməsi; terminoloji lüğət problemi ); terminologiyanın uni-

fikasiyası və standartlaşdırılması kimi aktual linqvistik problemlər araşdırılır. Türk dilləri üçün ortaq terminoloji bazanın yaradılması bu gün önəmli olan bir məsələdir. Dilimizdə müxtəlif dillərdən alınan beynəlxalq terminlərin sayı gündən-günə artır. Tədqiqatda qeyd edildiyi kimi, ortaq terminoloji bazanın yaradılmasını da bu cəhət zəruriləşdirir. Belə ki, təyin edilmiş dillərin hər birinin müxtəlif sahələrə aid terminləri seçilməlidir. Anlayışı dəqiq ifadə edən terminlər ortaq türk dilləri üçün qəbul olunmalıdır. Belə bir məsələnin həlli terminologiyanın standartlaşdırılması üçün şərait yaradır. Monoqrafiyada terminologiyada özünü əks etdirən leksik paralellər, dubletlər, onların yaranma zərurəti zəngin faktlarla təhlil edilir. Qeyd edildiyi kimi hər bir dubletdə iki cəhət var: birinci cəhət terminin ümumi xarakterli olmasıdır ki, bu da onu başqa sözlərlə paralel sırada qoyur. Bu paralel sırada dayanan sözlərdən biri də çox vaxt Avropa mənşəli alınmalardır. Ona görə də milli dillərdə işlənən alınma terminlərin spesifikası, polifunksionallığı və struktur-semantik xüsusiyyətləri, milli dillərin zənginləşməsində beynəlmiləl terminlərin rolu, alınma söz və terminlərin yaranma mənbələri, formalaşması, struktur-semantik xüsusiyyətləri və eyni zamanda alınma terminlər tarixən yaranma mənbələrinə görə müxtəlif qruplara ayrılaraq zəngin faktlarla təhlil edilmişdir. Alınma sözlərin mənimsənilməsini şərtləndirən amillər və meyarlar, onların unifikasiya prosesi, həmin

sözlərin toplanıb qeydə alınması, sistemə salınması dilin inkişafında ən mühüm amil kimi təhlil obyekti olmuşdur. Müasir Azərbaycan dilinə ingilis dilindən daxil olan alınma terminlərin, o cümlədən də beynəlmiləl terminlərin nizama salınması, müvafiq sahə terminologiyalarında unifikasiyanın aparılma yolları bir proses kimi araşdırılmışdır. Təhlil süzgəcindən keçirilərək yazılır ki, leksik paralelizm" və ya "leksik paralel" terminlərinin mətn dilçiliyi sahəsində interpretasiyasından fərqli olaraq, leksikologiyada "leksik paralelizm" həm sistemdaxili semantik paralellər, həm də sistemlər arası müvazilik halları nəzərə alınmalıdır. İnterleksemlər bir çox hallarda, sistemdaxili semantik paralelizm situasiyalarını formalaşdırmış olur. Paralellər eyni məfhumun müxtəlif sözlərlə ifadəsinin xüsusi formasıdır, yəni əsasən milli sözlər və alınma sözlər əsasında yaranır. Bir məqam isə, buradakı paralelizmin eyni sistem daxilində formalaşan, lakin digər tərəfdən sistemlərarası paralellik faktlarının (yəni, interleksemlərin) təsiri ilə yaranan dil faktlarını əhatə etməsi ilə bağlıdır. Dəqiqləşdirilir ki, burada istər daxili, istərsə də dillərarası müvazilik faktlarının əlaqəli mövcudluğu ola bilir. Azərbaycan dilinin, eləcə də digər türk dillərinin leksik sistemində yer alan paralelliklərin müəyyənləşdirilməsi üçün tətbiq edilən təhlil standartları üçün müəyyən qruplaşdırmanın aparılması zərurəti yaranır. Bu baxımdan, terminologiyada *sistemdaxili və sistemlərarası leksik paralellizmlər*

fərqləndirilir və onlar da öz növbəsində altqruplara ayrılır. Müəyyənləşdirilir ki, standartların işlənib hazırlanması, təsdiqi bu sahələrin normativ sənədlərində istifadə edilən terminlərin ikili şərhini, təsvirini aradan qaldırır, mübahisəli məsələlərin həllinə yardım göstərir. Bu prosesdə terminlərin nizama salınması, onların toplanması, siyahıya alınması və lüğətlərin tərtibi qaydalarına verilən tələblər əsas götürülür. Terminologiyanın standartlaşdırılması prosesi üç mərhələdən-terminologiyanın inventarlaşdırılması, terminologiyanın nizama salınması, terminologiyanın unifikasiyası kimi həyata keçirilməsi sistemlilik baxımından aydınlaşdırılmışdır. Dəqiqləşdirilir ki, standartların hazırlanması normativ sənədlərin tərtibi və təsdiqi mərhələlərini əhatə edir. Qeyd edilir ki, nizamasalınma prosesinin son nəticəsi sahələrin termin sistemini tam əhatə edən, sahədəki mövcud vəziyyəti bütünlüklə özündə əks etdirən terminoloji lüğətlərin hazırlanmasıdır. Lüğətlərin tərtibi zamanı anlayışların terminoloji mənası haqqında yanlış təsəvvür yaradan terminlərin dəqiqləşdirilməsi üçün dəqiqlik dərəcəsi daha yüksək olan terminlərin qeydə alınmasına üstünlük verilməlidir.

"Müstəqillik illərində Azərbaycan dilində terminologiyanın inkişafı" (Bakı, "Avropa", 2016, 396 səh.) adlı monoqrafiyasında hazırkı dövrdə dilin lüğət tərkibində baş verən proseslər, ən əsası yeni terminlərin yaranması və onların termin yaradıcılığında rolu tədqiqat obyekti olmuşdur. Bütövlükdə, müstəqillik

illərində Azərbaycan dilində terminologiyanın zənginləşmə və inkişaf yolları, terminoloji sistemin yaranma istiqamətləri, məntiqi-linqvistik əsasları tədqiq edilmiş, unifikasiya və standartlaşdırma formaları nəzəri və praktik cəhətdən linqvistik təhlilə cəlb olunmuşdur. Müstəqillik illərində tərtib olunan lüğətlər, terminoloji lüğətlərin sözlüyünün tərtibi prinsipləri və tərtib olunan müxtəlif sahə lüğətləri haqqında geniş məlumat verilmişdir.

S.Sadıqovanın ”Azərbaycan Xalq Cümhuriyyəti və milli ədəbi dilin inkişaf tarixi” (1918-2018; Bakı, “Elm”, 2018,484 səh. Ş.Həsənli-Qəribova ilə birlikdə) monoqrafiyası öz zənginliyi ilə diqqəti cəlb edir. Bu əsərdə milli ədəbi dilin yüzillik inkişaf tarixi zəngin faktlarla tədqiq olunmuşdur. Qeyd edilir ki, hər millətin inkişafında ən mühüm varlıq və yaşanma amili olan dilin müstəsna rolu vardır. Azərbaycan ədəbi dili zaman keçdikcə təkmilləşmiş, cilalanmış, həm qohum və həm də qeyri-qohum dillərin qarşılıqlı əlaqəsi əsasında inkişaf etmişdir. Müasir Azərbaycan dilinin fonetik sistemində ümumi cəhətlərlə yanaşı, fərqli xüsusiyyətlərin varlığı məhz bu tarixi inkişafın qanunauyğunluqları ilə bağlıdır. Azərbaycan dilində bu proses nəticəsində yaranmış orfoqrafiya qaydaları, əlifba problemləri, terminologiya məsələləri ayrı-ayrı yarımfəsillərdə geniş şəkildə təhlil edilmişdir. Əsərdə Azərbaycan dilinin tarixi əsasları barədə mükəmməl təsəvvür yaradılmış və Azərbaycan dilinin tarixi kökləri, ilk demokratik res-

publikanın dil siyasəti, onun problemləri, dilin dövlət dili kimi inkişafında aparılan dil quruculuğu siyasəti sistemli şəkildə araşdırılmışdır.

Alimin yaradıcılığında dövlətçiliyimiz və dünya siyasəti tarixində fenomen şəxsiyyət olan ulu öndər Heydər Əliyevin apardığı dil siyasəti, onun qorunması istiqamətində həyata keçirilən tədbirlər geniş şəkildə işıqlandırılmışdır. Bununla yanaşı alim ədəbi dil məsələləri, radio və televiziyanın dili, mətbuatın dili ilə bağlı sanballı elmi əsərlərin müəllifidir. S. Sadıqovanın dilçiliyin aktual məsələlərinə həsr olunmuş bir çox əsərlərinin dil quruculuğu sahəsində və xüsusən tətbiqi dilçilikdə mühüm əhəmiyyəti vardır. Görkəmli alimin tədqiqatlarında dilçiliyin daim inkişafda olan, dili zənginləşdirən, elmi dilin əsasını təşkil edən terminologiya, eləcə də dilin qorunması və inkişafı ilə bağlı çox gərəkli, obyektiv və bu günümüz üçün də elmi əhəmiyyətini qoruyub saxlayan fikirlər irəli sürülmüşdür. Elm aləminin təqdirlə qarşıladığı bu əsərlərdə xalqın tarixi ilə dili vəhdətdə götürülür. Bu əsərlər dilimizin qədim tarixini və bu gününü elmi-linqvistik və tarixi materiallar işığında obyektiv şəkildə şərh edən kompleks bir sistem kimi diqqəti cəlb edir. Müəllif tədqiqatlarında faktiki dil materiallarına, elmi mənbələrə əsaslanır.

Onu bir dilçi-filoloq kimi xarakterizə edən əsas xüsusiyyətlərdən biri də ondan ibarətdir ki, o, terminologiya problemləri ilə bərabər Azərbaycan dilçiliyi-

nin bütün sahələri ilə bağlı tədqiqatlar aparmış, ən aktual məsələlərə dair öz fikir və mülahizələrini şərh etmişdir. Kütləvi informasiya vasitələrində dövlət dili olan Azərbaycan dilinin qorunması və inkişafı ilə bağlı silsilə məqalələri dərc olunmuşdur. Ana dilimizin zəngin xəzinəsini özündə əks etdirən lüğətçiliklə bağlı əsərləri də xüsusi maraq doğurur. Təcrübə və nəzəriyyəni professionallıqla birləşdirən, vəhdət halında götürən tədqiqatçı nəzəri əsərlərlə yanaşı, elmin müxtəlif sahələri ilə bağlı nəşr olunan lüğətlərin redaktoru və ön sözünün müəllifidir. Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Terminologiya Komissiyasının fəaliyyəti nəticəsində leksikoqrafik işlərin daha mükəmməl aparılması üçün əlverişli şərait yaradılmış, lüğətçiliyin təkcə praktik əsasları deyil, həmçinin nəzəri problemlərinin tədqiq edilməsi sahəsində çox mühüm işlər aparılmışdır. Terminoloji lüğətlərin bazası əsasında Azərbaycan ədəbi dilinin zənginləşməsi və inkişafı sahəsində uzun illərdən bəri aparılan iş təcrübəsi əsas istiqamətlərdən biri kimi təkmilləşdirilmişdir. Elmlərin inkişafı ilə bağlı yeni anlayışların və terminlərin yaranması terminşünaslıqda öz inikasını tapır. S.Sadıqova uzun müddətdir ki, bu sahəyə rəhbərlik edir və elmin-texnikanın müxtəlif sahələri ilə bağlı nəşr olunan terminoloji lüğətlər təkcə Respublikamızda deyil, türkdilli dövlətlər tərəfindən də rəğbətlə qarşılanır. Bu sahədəki təcrübə elmin müxtəlif sahələrinin terminologiyasının nizama salın-

masında mühüm rolu olmuşdur. Eyni zamanda ədəbi dilin zənginləşməsində terminoloji lüğətlər zəngin mənbədir. Bu baxımdan alim "Azərbaycan dilində izahlı fizika-riyaziyyat terminləri lüğəti" (B., "Elm", 1998), "İzahlı dilçilik terminləri lüğəti"(Bakı, Elm, 2018, 912səh.; 2019, 1200 səh.), "İzahlı yeni terminlər lüğəti"( iki cild, Bakı, Elm, 2016, 234 səh.; 2018, 248 səh.),"Azərbaycan dilində şəxs adlarının izahlı lüğəti"(Bakı, Elm, 2016, 233 səh.) kimi bir sıra lüğətlərin tərtibçisidir.

S.Sadıqovanın ilk dəfə tərtib etdiyi lüğət 1998-ci ildə nəşr olunmuşdur. Fizika-riyaziyyat terminlərinin inkişaf tarixi, yaranma mənbələri, üsulları, beynəlxalq terminlər, onların terminoloji lüğətlərdə verilməsi qaydaları tədqiq edilmiş və həmin sahə ilə bağlı "İzahlı fizika-riyaziyyat terminləri lüğəti"(Bakı, Elm, 1998) nəşr olunmuşdur.

Müəllifin yaradıcılıq uğurlarından biri də dilə daxil olan yeni terminlərin toplanması və onların izahının verilməsidir. Hazırkı dövrdə mətbuatda, elmi-texniki ədəbiyyatlarda işlənən yeni terminlər toplanaraq iki cilddə "İzahlı yeni terminlər lüğəti"ndə nəşr olunmuşdur. Birinci cilddə ( İzahlı yeni terminlər lüğəti, Bakı, Elm, 2015, 242 səh) 2500, ikinci cilddə ( İzahlı yeni terminlər lüğəti, Bakı, Elm, 2018, 240 səh) 2700 yeni termin toplanmış və izahı verilmişdir. Elmi-texniki tərəqqi, ictimai-siyasi dəyişikliklərlə bağlı yeni yaranan terminlər dilin leksik sistemini zənginləşdirir.

Yeni terminlər isə ən çox tədqiqat işi aparılan zaman, ictimai-siyasi həyatda baş verən dəyişikliklərlə bağlı, həmçinin elmi-texniki ədəbiyyatların tərcüməsi prosesində yaranır. Bu nəzərə alınaraq alim tərəfindən tərtib edilən "İzahlı yeni terminlər lüğəti"ndə ("Elm" nəşriyyatı, Bakı, 2018, 240 səh., həmmüəllif) Azərbaycan dilində işlənən 6 mindən çox yeni termin toplanmış və onların izahı verilmişdir. Dildə yeni yaranan anlayış və məfhumların sistemləşdirilməsi, qaydaya salınması baxımından lüğət olduqca əhəmiyyətlidir. Bununla yanaşı dilə daxil olan yeni alınma terminlərin dildə yazılma qaydaları haqqında təkliflər də verilmişdir. Hazırda elmi-texniki əsərlərdə, qəzet və jurnallarda, radio və televiziyada onlarla yeni terminlər işlədilir. Bunlar toplanılmış, izahı və orfoqrafiyası müəyyənləşdirilmişdir. Belə lüğətlərin nəşri dilin lüğət tərkibinin zənginləşmə istiqamətlərinin müəyyənləşdirilməsində başlıca mənbədir.

S.Sadıqovanın rəhbərliyi altında nəşr olunan və eyni zamanda tərtibçisi olduğu "İzahlı dilçilik terminləri lüğəti" dilçiliyin ümumi anlayışlarını ifadə edən terminlərin məcmusudur. Dilçilik elmi ilə bağlı dərsliklərdə, monoqrafiyalarda öz əksini tapan terminlər toplanaraq lüğətdə verilmiş, izahı göstərilmişdir. Lüğətdə dilçilik terminləri müəyyən qayda və prinsiplər çərçivəsində təqdim olunmuşdur. Dilçiliyin müxtəlif sahələri – müasir dil, dil tarixi, dialektologiya, lüğətçilik, üslubiyyat, nitq mədəniyyəti, onomastika, mü-

qayisəli və tətbiqi dilçiliklə bağlı terminlər toplanaraq izahı verilmişdir. Dilçilik elminin müasir inkişaf səviyyəsi, yeni-yeni istiqamətlərin təşəkkülü, elmlərin inteqrasiyası və diferensiyasının nəticəsi olaraq dilçiliyin həmhüdud sahələrinin inkişafı yeni terminlərin yaranmasına səbəb olur. Hazırda bu proses davam etməkdədir. Bu terminlərin ifadə olunmasında dilin daxili imkanları əsasında termin yaradıcılığı ilə paralel terminalma da sürətli forma almışdır. Müasir dövrdə terminologiyada gedən prosesləri səciyyələndirən əsas cəhətlərdən biri beynəlmiləl terminlərin sayının sürətlə artmasıdır. Dilçilik elminin sürətli inkişafı, yeni dilçilik sahələrinin yaranması bu sahədə yaranan terminlərin toplanmasını, onların sistemləşdirilməsini və izahlı dilçilik terminləri lüğətinin tərtibini zəruri edir. Dilçiliyin müxtəlif sahələri ilə bağlı aparılan tədqiqatlar da hazırda yeni izahlı lüğətin tərtibi üçün zəmin yaratmışdır. Azərbaycan dilinin dilçilik terminologiyasının nizama salınmasına kəskin ehtiyac duyulur. Bunu nəzərə alaraq tərtib olunan lüğətdə 8000 terminin definitiv tərifinə, şərhinə geniş yer verilmişdir. Yeni lüğətin hazırlanmasında indiyə qədər hazırlanmış lüğətlər və nəşr olunmuş tədqiqat əsərləri mənbə kimi götürülmüşdür. 2019-cu ildə nəşr edilən lüğət eyni adlı 2018-ci ildə çap edilmiş lüğətin təkmilləşdirilmiş nəşridir. Lüğətin yeni nəşrinin əhatə dairəsi əsaslı şəkildə genişləndirilmişdir. Bəzi anlayışların izahı  daha konkret şəkildə verilmişdir. Terminlər

qruplaşdırılarkən standart termin sistemliliyi, normalaşdırma, vahid normaya salma prinsipi əsas götürülmüşdür. Lüğətdə dilçilik terminləri toplanıb sistemləşdirilmiş, lüğətə daxil edilən vahidlərin semantikası verilmişdir. Bu zaman terminlərin ənənəvi tərifləri və izahı olduğu kimi saxlanılmışdır. Lakin bəzi terminlərin izahında bir-birindən fərqli fikirlər də mövcuddur. Belə terminlərin izahında, bir sıra mübahisəli məsələlərin həllində son tədqiqatlar əsas götürülmüşdür. Hazırlanmış lüğətdə indiyə qədər tərtib olunmuş terminoloji lüğətlərin təcrübəsindən istifadə edilərək, mövcud və yeni yaranan terminlər toplanmış və izahı verilmişdir. Uzun illərin və gərgin zəhmətin məhsulu olan lüğət istifadəçilərin ən yaxın köməkçisidir.

Sayalı Sadıqova yalnız terminoloji lüğətlərin deyil, eyni zamanda "Azərbaycan dilində şəxs adlarının izahlı lüğəti"(Bakı, Elm, 2016, 233 səh.) kimi bir sıra lüğətlərin tərtibçisidir. Onun tərtib etdiyi "Azərbaycan dilində şəxs adlarının izahlı lüğəti" Respublikamızda fəaliyyət göstərən qeydiyyat idarələrində yeni doğulan körpələrə adların qoyulmasında istifadə edilən əsas vəsaitdir. Lüğətdə Azərbaycan dilinin adlar sistemində işlənən 6 minə yaxın ad toplanmış və onların izahı verilmişdir. Bu baxımdan lüğət hər bir vətəndaşa adlar seçməkdə, onların ehtiyacını ödəməkdə ən faydalı məxəzdir. Dilçiliyin bir sıra sahələri ilə bağlı tədqiqatlar aparan, filologiya elmləri doktoru, professor Sayalı Sadıqova çox zəngin və məhsuldar bir yaradıcılığa

malik alimdir.Ədəbi istiqamətdə bir çox nəsr və nəzm əsərlərinin ön sözünün müəllifi və redaktorudur. Onun elmi fəaliyyət sahəsi rəngarəng, tədqiqat sahəsi geniş və əhatəlidir, çoxsaylı əsərləri elmiliyi, professionallığı ilə seçilir, müəllifin dərin, sərrast elmi təfəkküründən xəbər verir.

Alimin dilçilik sahəsindəki uğurları respublikamızın hüdudlarından kənarda da nüfuz qazanmışdır. Onun əsərləri Rusiya, Qazaxıstan, Özbəkistan, Türkmənistan, Türkiyə və İranda nəşr olunmuşdur. S.Sadıqova bunlarla bərabər Respublikamızda, eləcə də Türkiyə (İstanbul); Qazaxıstan (Astana) və İranda keçirilmiş konfrans və simpoziumlarda maraqlı məruzələrlə çıxış etmişdir. 2011-2012-ci ildə Türkiyədə keçirilən Dil qurultayında nümayəndə heyəti kimi iştirak etmişdir.

S.Sadıqova uzun müddət Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının Ekspert Şurasının üzvü olmuş, hazırda Respublika Elmi Tədqiqatların Təşkili və Əlaqələndirmə Şurasının, Azərbaycan Milli Elmlər Akademiyası nəzdində Dilçilik üzrə Müdafiə Şurasının sədr müavini və Dilçilik İnstitutunda Elmi seminarın sədridir. S. Sadıqovanın rəhbərliyi ilə dilçiliyin müxtəlif problemləri ilə bağlı 14 nəfər filologiya üzrə fəlsəfə doktoru, o cümlədən 2 nəfər filologiya üzrə elmlər doktoru alimlik dərəcəsi almışdır. 2008-ci ildə AAK tərəfindən ixtisas üzrə professor adı verilmişdir.

Terminologiya sahəsindəki elmi tədqiqatları respublikamızın hüdudlarından kənarda da nüfuz qazanmışdır. Terminologiya Komissiyasının xətti ilə Azərbaycan dilinin təkcə respublikada deyil, respublikadan kənarda qorunması istiqamətində də mühüm işlər aparır. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının dəvəti ilə İstanbul şəhərində 16 noyabr 2012-ci il tarixində ilk iclasında iştirak etmiş, Türk dillərinin vahid terminologiyasının yaradılması sahəsində Ekspertlər Komitəsinin və Ortak Terminoloji Kurulun üzvü seçilmişdir. Türk dillərinin ortaq əlifbasının qəbul edilməsi və prinsiplərinin hazırlanmasında iştirak etmişdir. 2013-cü ildə Türki kenesi Terminologiya Komitəsinin təşkilatçılığı ilə Qazaxıstanda yaranan Türki Akademiyasında Türk dillərinin Terminologiya məsələləri- termin yaradıcılığı prosesi ilə bağlı toplantıda iştirak etmişdir. Toplantıda Türkdilli respublikalarda terminologiyanın müasir vəziyyəti, gələcək inkişafı müzakirə olunmuşdur. Türk dillərinin ortaq terminologiyasının yaradılmasının əsas problem kimi geniş şəkildə müzakirə olunmuş təşkilat Komitəsində iştirak etmiş və Türki kenesi Terminologiya Komitəsinin üzvü seçilmişdir. 2017-ci ildən Azərbaycan Respublikasının Prezidenti İ. Əliyevin sərəncamı ilə yaradılan Dil Komissiyasının üzvüdür. Azərbaycan dilçilik elminin inkişafındakı xidmətlərinə görə professor S.A.Sadıqova 12 dekabr 2005-ci ildə AMEA-nın 60 illiyi və 29 oktyabr 2010-cu ildə anadan olmasının 50

illiyi ilə əlaqədar Azərbaycan Milli Elmlər Akademiyasının Fəxri Fərmanı ilə təltif edilmişdir. Elmi və təşkilati fəaliyyəti yüksək qiymətləndirilərək 2015-ci ildə Azərbaycan Respublikasının Prezidentinin sərəncamı ilə "Tərəqqi medalı" ilə təltif edilmişdir. S.A.Sadıqova 2017-ci ildə AMEA Nəsimi adına Dilçilik İnstitutunun Elmi Şurasının qərarı ilə "İlin alimi", Azərbaycan Kütləvi İnformasiya Şurası tərəfindən Azərbaycan dilinin qorunmasının təmin edilməsindəki fəaliyyətinə, Vətənə və xalqa layiqli xidmətlərinə görə "İlin nüfuzlu ziyalısı" ali media mükafatına, 2018-ci ildə yaradıcılıq fəaliyyətinə görə KİV və Həmkarlar İttifaqı Rəyasət Heyətinin qərarı ilə "Qızıl qələm" media mükafatına layiq görülmüşdür. Filologiya elmləri doktoru, professor Sayalı Sadıqovanın dilçiliyin ən mühüm problemlərinə-terminologiya, leksikologiya, dil tarixi, onomastikaya aid əsərləri, Dövlət dilinə aid mətbuat səhifələrində tez-tez dərc olunan məqalələri, kütləvi informasiya vasitələrində çıxışları respublikamızın elmi ictimaiyyəti tərəfindən maraqla qarşılanır. Azərbaycan dilçiliyinin müxtəlif sahələrinə həsr edilmiş çoxşaxəli yaradıcılığı, yenilikçi olması ilə diqqət mərkəzindədir. Görkəmli alimin pedaqoji və elmi fəaliyyəti, yazdığı sanballı əsərlər, yetişdirdiyi kadrlar fədakar alim fəaliyyətinin parlaq nümunəsidir.

**akademik Möhsün Nağısoylu**

# ÖMRÜN ƏSAS İLLƏRİ

| | |
|---|---|
| **1960-cı il** | – Qərbi Azərbaycanın Krasnoselo rayonunun Cil kəndində iyunun 22-də anadan olmuşdur. |
| **1967-ci il** | – Cil kəndində birinci sinfə getmişdir. |
| **1977-ci il** | – Cil kənd orta məktəbini əla qiymətlərlə başa vurmuşdur. |
| **1977-ci il** | – Azərbaycan Dövlət Pedaqoji Universitetinin (APİ) filologiya fakültəsinə daxil olmuşdur. |
| **1981-ci il** | – Azərbaycan Dövlət Pedaqoji Universitetinin (APİ) filologiya fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir. |
| **1981-1984-cü illər** | – AMEA (Azərbaycan SSR Elmlər Akademiyası) Nəsimi adına Dilçilik İnstitutunun aspirantı olmuşdur. |
| **1984-cü il** | – AMEA Nəsimi adına Dilçilik İnstitutunda kiçik elmi işçi vəzifəsinə işə götürülmüşdür. |
| **1986-cı il** | – "Azərbaycan ədəbi dilində termin-söz birləşmələri" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir. |
| **1986-cı il** | – SSRİ Ali Attestasiya Komissiyasında namizədlik dissertasiyası təsdiq |

| | |
|---|---|
| | olunmuş və filologiya elmləri namizədi elmi dərəcəsi adını almışdır. |
| **1992-ci il** | – AMEA Nəsimi adına Dilçilik İnstitutunda böyük elmi işçi vəzifəsinə keçirilmişdir. |
| **1994-1997-ci illər** | – Nəsimi adına Dilçilik İnstitutunda əyani doktorant olmuşdur. |
| **1997-ci il** | – Yasamal rayonu 2 saylı ilk özəl təşkilatına daxil olan Nəsimi adına Dilçilik İnstitutunda Yeni Azərbaycan Partiyasının sədri seçilmişdir. |
| **1997-ci il** | – "Azərbaycan dilində fizika–riyaziyyat terminologiyasının formalaşması və inkişafı" mövzusunda doktorluq işi müzakirə olunaraq müdafiəyə buraxılmışdır. |
| **1999-cu il** | – "Azərbaycan dilində fizika–riyaziyyat terminologiyasının formalaşması və inkişafı" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. |
| **2000-ci il** | – Filologiya elmləri doktoru alimlik dərəcəsi adını almışdır. |
| **2000-ci il** | – Azərbaycan Milli Elmlər Akademiyasının Nəsimi adına Dilçilik İnstitutunda Terminologiya şöbəsinin müdiri seçilmişdir. |

| | |
|---|---|
| **2000-ci il** | – AMEA Rəyasət Heyəti yanında Terminologiya Komissiyasının sədr müavini və məsul katibi seçilmişdir. |
| **2000-ci il** | – AMEA RH yanında Terminologiya Komissiyasının xətti ilə nəşr olunan "Terminologiya məsələləri" toplusunun redaktorudur. |
| **2001-2015-ci illər** | – Dilçilik problemləri üzrə Respublika Koordinasiya Şurasının üzvü seçilmişdir. |
| **2002-2007-ci illər** | – AMEA Nəsimi adına Dilçilik İnstitutunda Müdafiə Şurasının üzvü seçilmişdir. |
| **2005-ci il** | – AMEA-nın 60 illiyi ilə əlaqədar Fəxri Fərmanla təltif edilmişdir. |
| **2005-ci il** | – Bakı Dövlət Universitetinin Azərbaycan dili kafedrasının professoru seçilmişdir. |
| **2006-cı il** | – Azərbaycan Dillər Universitetində keçirilən I Türkoloji Qurultayın 80 illiyi ilə əlaqədar keçirilmiş Respublika elmi-nəzəri konfransda məruzəsinə görə Fəxri Fərmanla təltif olunmuşdur. |
| **2008-2015-ci illər** | – Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının Ekspert Şurasının üzvü seçilmişdir. |

| | |
|---|---|
| **2007-2016-cı illər** | – Respublika Elmi Tədqiqatların Təşkili və Əlaqələndirmə Şurasının üzvü seçilmişdir.. |
| **2008-ci il** | – AAK tərəfindən Azərbaycan dili ixtisası üzrə professor elmi adı verilmişdir. |
| **2008-ci il** | – AMEA Nəsimi adına Dilçilik İnstitutunun "Elmi əsərləri" jurnalının redaksiya heyətinin üzvü seçilmişdir.. |
| **2010-cu il** | – AMEA Dilçilik İnstitutunda anadan olmasının 50 illiyi münasibəti ilə konfrans keçirilmişdir. |
| **2010-cu il** | **–** Anadan olmasının 50 illiyi ilə əlaqədar Azərbaycan Milli Elmlər Akademiyasının Fəxri Fərmanı ilə təltif olunmuşdur. |
| **2010-cu il** | – Türk Dil Qurumu tərəfindən "Türk cümhuriyyetləri bilisim və ortaq terimler alanında iş birliyi Forumu"nda mükafatlandırılmışdır. |
| **2011-ci il** | – "Azərbaycan dilinin terminologiyası" (B., Elm, 2011) kitabı AMEA-nın illik hesabat yığıncağında ilin əsas nailiyyəti hesab edilmişdir. |
| **2011-ci il** | – Qazaxıstan Respublika Mədəniyyət Nazirliyinin Dil Komitəsi tərəfindən |

keçirilən “Türk dillərində termin yaradıcılığı təcrübəsi” Beynəlxalq konfransının Təşkilat Komitəsinə üzv seçilmişdir. (Astana)

**2011-ci il** – Nəsimi adına Dilçilik İnstitutu tərəfindən keçirilən Nitq mədəniyyəti və terminologiyanın aktual problemləri Respublika elmi konfransının Təşkilat Komitəsinə üzv seçilmişdir.

**2012-ci il** – Təhsil Nazirliyi tərəfindən Respublika Olimpiadasının təşkilində iştirakına görə Fəxri Fərmanla mükafatlandırılmışdır.

**2012-ci il** – Dilçilik İnstitutunda Elmi seminarın sədridir.

**2012-ci il** – Türk dillərinin vahid terminologiyasının yaradılması sahəsində Ekspertlər Komitəsi və Ortaq Terminoloji Quruma üzv seçilmişdir.

**2013-cü il** – Qazaxıstanda yaranan Türk Akademiyasında Türk Keneşi Terminologiya Komitəsinə üzv seçilmişdir.

**2013-cü il** – AMEA Nəsimi adına Dilçilik İnstitutunda Müdafiə Şurasına üzv seçilmişdir.

**2013-cü il** – Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Terminologiya Ko-

missiyasının sədr müavini təyin olunmuşdur.

**2014-cü il** – Azərbaycan Milli Elmlər Akademiyası nəzdində Dilçilik üzrə Müdafiə Şurasına üzv seçilmişdir.

**2014-cü il** – Qazaxıstan Respublikasında Türk Akademiyasında "Türk dillərində terminologiyanın inkişafı" Beynəlxalq qrant layihəsinin iştirakçısı olmuşdur.

**2014-cü il** – Azərbaycan alimlərinin Birinci Qurultayına üzv seçilmiçdir.

**2015-ci il** – Azərbaycan Respublikasının Prezidentinin sərəncamı ilə "Tərəqqi medalı" ilə təltif edilmişdir.

**2015-ci il** – Bakı Qızlar Universitetinin professoru seçilmişdir.

**352.** Türkan Əfəndiyeva. Feilin keçmiş zamanı (redaktor və ön söz müəllifi), Bakı, "Nurlan" nəşriyyatı, 2004, 246 səh.

**353.** Rusca-azərbaycanca dəmiryol nəqliyyatı terminləri lüğəti ( redaktor və ön sözün müəllifi), "Çaşıoğlu" nəşriyyatı, Bakı, 2004, 672 səh.

**354.** Gülbəniz Qocayeva. Rusca-azərbaycanca texniki terminlərin izahlı lüğəti (redaktor), Bakı, "Azərbaycan Milli Ensiklopediyası" nəşriyyatı, 2004, 776 səh.

**355.** H. Əliyev. Qaynaq istehsalına aid izahlı terminlər lüğəti (redaktor), Bakı, "Media" nəşriyyatı, 2004, 110 səh.
**356.** Abil İbrahimov. İngiliscə-rusca-türkcə-azərbaycanca hüquq terminləri lüğəti (ön sözün müəllifi, redaktor), Bakı, "Nurlar" nəşriyyatı , 2004, 214 səh.
**357.** İngiliscə-rusca-azərbaycanca aqrar istehsalı və maşınqayırma terminlər lüğəti (redaktor), Bakı, "İlkin" nəşriyyatı, 2004, 203 səh.
**358.** Terminologiya məsələləri (redaktor və ön sözün müəllifi), Bakı, "Elm" nəşriyyatı, 2004, 164 səh.
**359.** Müseyib Məmmədov. Azərbaycan dili və nitq mədəniyyəti məsələləri (rəyçi), Bakı, "Nurlan" nəşriyyatı, 2004, 321 səh.
**360.** Tədqiqlər (rəyçi), Bakı, "Elm" nəşriyyatı, 2004, 381 səh.
**361.** Təranə Xəlilova. Azərbaycan dilində izahlı inşaat terminləri lüğəti (redaktor və ön sözün müəllifi), "Nurlan" nəşriyyatı, Bakı, 2005, 113 səh.
**362.** İzahlı iqtisadiyyat terminləri lüğəti (redaktor və ön sözün müəllifi). Bakı, "Nurlan" nəşriyyatı, 2005, I cild , 555 səh .
**363.** İzahlı iqtisadiyyat terminləri lüğəti (redaktor və ön sözün müəllifi). Bakı, "Nurlan" nəşriyyatı, 2005, II cild, 495 səh.
**364.** Mehdi Rəhimov. Rusca-azərbaycanca-ingiliscə kimya terminləri lüğəti (rəyçi), Bakı, "Nurlan" nəşriyyatı, 2005, 152 səh.

**365.** Qara Məşədiyev, Nəriman Seyidəliyev. İzahlı onomastik terminlər lüğəti(rəyçi), Bakı, “Nurlan” nəşriyyatı, 2005, 118 səh.
**366.** A.Abbasov, M.Quliyeva, E.Cəfərova. Rusca-ingiliscə idman terminləri lüğəti (redaktor), Bakı, “Çinar-çap” nəşriyyatı, 2005, 511 səh.
**367.** Qəzənfər Kazımov. Dil, tarix, poeziya (rəyçi), Bakı, “Nurlan” nəşriyyatı, 2005. 598 səh.
**368.** Türkan Əfəndiyeva. Müasir Azərbaycan dilində feilin keçmiş zaman formaları (redaktor və ön sözün müəllifi), Bakı, “Nurlan” nəşriyyatı, 2005, 132 səh.
**369.** Telman Quliyev. Azərbaycan ədəbi dilində terminoloji yeniləşmə (rəyçi), Bakı, “Nurlan” nəşriyyatı, 2005, 185 səh.
**370.** Terminologiya məsələləri. (redaktor və ön sözün müəllifi), Bakı, “Elm” nəşriyyatı, 2005, 122 səh.
**371.** Sofya İsrafilova. Azərbaycan dilində informatika terminlərinin leksik-semantik təhlili (redaktor). Bakı, “Təhsil” nəşriyyatı, 2006, 142 səh.
**372.** Lalə Qurbanova. Dil sistemində terminoloji leksika (elmi redaktoru). Bakı, “Təhsil” nəşriyyatı, 2006, 138 səh.
**373.** İ.Zeynalov. İzahlı tarix terminləri lüğəti (redaktor), Bakı, “Azərnəşr”, 2006, 284 səh.
**374.** Terminologiya məsələləri. (redaktor və ön sözün müəllifi), Bakı, “Elm” nəşriyyatı, 2006, 132 səh.
**375.** İkram Qasımov. Azərbaycan terminologiyası (redaktor), Bakı, “Mütərcim” nəşriyyatı, 2007, 246 səh.

**376.** Terminologiya məsələləri. (redaktor və ön sözün müəllifi). Bakı, "Elm" nəşriyyatı, 2007, 191 səh.
**377.** Xuraman Quliyeva. Rus dilindən Azərbaycan dilinə kalkaetmə (redaktor), "Nafta-Press" nəşriyyatı, 2007, 135 səh.
**378.** Elxan Elatlı. Pəncərədən gələn kölgə (ön sözün müəllifi), Bakı, "Yazıçı" nəşriyyatı, 2007, 342 səh.
**379.** Abbas Abbasov. İngiliscə-azərbaycanca hüquq terminləri lüğəti (rəyçi), Bakı, "Tərcüman" nəşriyyatı, 2007, 312 səh.
**380.** Afad Qurbanov. Azərbaycan şəxs adları ensiklopediyası (rəyçi). Bakı, "Nurlan" nəşriyyatı, 2007, 304 səh.
**381.** И.Абдуллаева. Лексико-семантический и структурный анализ музыковедческих терминов Азербайджанского языка (редактор), Баку, "Nurlan" 2008, 160 с.
**382.** Təranə Xəlilova. Azərbaycan dilində inşaat terminlərinin leksik-semantik strukturu (redaktor və ön sözün müəllifi), Bakı, "Nurlan" nəşriyyatı, Bakı, 2008, 166 səh.
**383.** Terminologiya məsələləri. (redaktor və ön sözün müəllifi), Bakı, "Elm" nəşriyyatı, 2008, 199 səh.
**384.** Qulu Məhərrəmli. Mediada işlənən alınma sözlərin izahlı lüğəti (rəyçi), Bakı, "Elm" nəşriyyatı, 2008, 256 səh.
**385.** Rauf Məmmədov, Mənzurə Musayeva, Güllü Məmmədova. İngiliscə-azərbaycanca rusca aviasiya

terminləri lüğəti (rəyçi), Bakı, "Şərq-Qərb" nəşriyyatı, 2008, I c. 758 səh.
**386.** Rauf Məmmədov, Mənzurə Musayeva, Güllü Məmmədova. İngiliscə-azərbaycanca rusca aviasiya terminləri lüğəti (rəyçi), Bakı, "Şərq-Qərb" nəşriyyatı, 2008, II c. 867 səh.
**387.** Abbas Abbasov, Bayramova Aytən. İngiliscə-azərbaycanca qısa hüquq terminləri lüğəti (rəyçi), Bakı, "Çinar" nəşriyyatı, 2008, 195 səh.
**388.** Torpaqşünaslıq və aqrokimya terminlərinin izahlı lüğəti (redaktor), Bakı, "Elm" nəşriyyatı, 2008, 310 səh.
**389.** Cabir Əhmədov. Məhkəmə-ballistik ekspertizası üzrə xüsusi terminlərin izahlı lüğəti (redaktor), Bakı, "Əzizoğlu MMS" nəşriyyatı, 2009, 150 səh.
**390.** И.М.Гусейнов, Х.С.Байрамов, Г.Ш.Гаса-нова. Русско-Англо-Азербайджанский словарь тех-ничес-ких терминов. (редактор). Гянджа, 2009, 316 с.
**391.** Terminologiya məsələləri. (redaktor və ön sözün müəllifi ), Bakı, "Elm" nəşriyyatı, 2009, 179 səh.
**392.** Xanım Qasımova. Müstəqillik illərində Azərbaycan dilində termin yaradıcılığının əsas istiqamətləri (redaktor və ön sözün müəllifi), Bakı, "Elm" nəşriyyatı, 2009, 125 səh.
**393.** N.Q.Sultanlı. Rusca-azərbaycanca arıçılıq terminləri lüğəti (redaktor), Bakı, "Azərnəşriyyat", 2010, 130 səh.
**394.** Təranə Şükürova. Azərbaycan və özbək dillərində müstəqillik dövründə termin yaradıcılığının əsas meyilləri (rəyçi). Bakı, "Təhsil" nəşriyyatı, 2010, 200 səh.

**395.** R.Əliquliyev, S.Kazımova, S.Şükürlü. Elmi fəaliyyətdə istifadə olunan əsas terminlər (redaktor və ön sözün müəllifi), Bakı, ”İnformasiya Texnologiyaları” nəşriyyatı, 2010, 210 səh.

**396.** İsmayıl Məmmədov. Qəzet dilinin leksikası (rəyçi), Bakı, “Elm və təhsil” nəşriyyatı, 2010, 175 səh.

**397.** Rafiq Manafoğlu, Nizami Tağısoy, Rüstəm Kamal. İzahlı tərcüməşünaslıq terminləri lüğəti (redaktor), Bakı, “Mütərcim” nəşriyyatı, 2010, 164 səh.

**398.** Terminologiya məsələləri. (redaktor və ön sözün müəllifi), Bakı, “Elm” nəşriyyatı, 2010, №1, 232 səh.

**399.** İsmayıl Kazımov, Xəlil Xəlilov. Ağarəhim Rəhimov bədii nəsrinin dil və üslub gözəlliyi (redaktor və ön sözün müəllifi), Bakı, “Elm” nəşriyyatı, 189 səh.

**400.** İlham Məmmədov. Rusca- ingiliscə azərbaycanca dənizçilik terminlərinin izahlı lüğəti (redaktor və ön sözün müəllifi), Bakı, “Apostrof” nəşriyyatı, 2010, 334 səh.

**401.** Həbib Mirzəyev. Azərbaycan dilində kargüzarlıq terminləri(redaktor və ön sözün müəllifi), Bakı, “Təhsil” nəşriyyatı, 2010,165 səh.

**402.** A.M.Həşimov,E.N.Zamanova,K.Qurbanov.Elek trofizika terminləri lüğəti (rəyçi), Bakı, “Elm” nəşriyyatı, 2010, 452 səh.

**403.** Terminologiya məsələləri (redaktor və ön sözün müəllifi), Bakı, “Elm” nəşriyyatı, 2010, №2, 232 səh.

**404.** Musayeva Mənzurə. Azərbaycan dilində mülki aviasiya terminlərinin formalaşmasında tərcümənin rolu

( redaktor və ön sözün müəllifi), Bakı, “Milli Aviasiya Akademiyası” nəşriyyatı, 2011, 121 səh.

**405.** Terminologiya məsələləri ( redaktor və ön sözün müəllifi), Bakı, “Elm” nəşriyyatı, 2011, №1, 153 səh.

**406.** Rasim Həsənov, Ruslan Sədirxanov. Bank-maliyyə terminlərinin izahlı lüğəti (redaktor və ön sözün müəllifi), Bakı, “Nurlar” nəşriyyatı, 2011, 544 səh.

**407.** Zahir Salahov, İkram Qasımov, İngiliscə-azərbaycanca-rusca hərbi terminlər lüğəti (redaktor və ön sözün müəllifi), Bakı, “Elm və təhsil” nəşriyyatı, 2010, 371 səh.

**408.** Terminologiya məsələləri ( redaktor və ön sözün müəllifi), Bakı, “Elm” nəşriyyatı, 2011, №2, 168 səh.

**409.** Təranə Xəlilova. Azərbaycanca-türkcə-ingiliscə izahlı inşaat terminləri lüğəti (redaktor və ön sözün müəllifi), Bakı, “Elm və təhsil” nəşriyyatı, 2011, 176 səh.

**410.** Yaşar Alxasov, Fərhad Məzəmli, Azərbaycanca-rusca ərəb mənşəli eyniköklü sözlər lüğəti (redaktor), Bakı, “Mütərcim” nəşriyyatı, 2011, 255 səh.

**411.** İ.N.Bəhərcinov, Ş.H.Həsənov, N.M. Qaraisayev. İnşaat terminləri lüğəti (redaktor və ön sözün müəllifi), Bakı, “Elm” nəşriyyatı, 2011, 442 səh.

**412.** Nitq mədəniyyəti və terminologiyanın aktual problemləri. (konfrans materialları; redaktor və ön sözün müəllifi), Bakı, “Elm” nəşriyyatı, 2011, 216 səh.

**413.** Əli Salahlı. Eşq tərənnümü (seir toplusu; ön sözün müəllifi), Baki, 2012, 100 səh.

**414.** Terminologiya məsələləri (ön sözün müəllifi və redaktoru), Bakı, “Elm” nəşriyyatı, 2012, №1, 175 səh.

**415.** H.Mirzəyev, A.Əsgərova, G.İmanova. Azərbaycan dili (dərslik, redaktor və ön sözün müəllifi). Bakı, "Təhsil" nəşriyyatı, 2012, 396 səh.
**416.** Terminologiya məsələləri (ön sözün müəllifi və redaktoru), Bakı, "Elm" nəşriyyatı, 2012, №2, 180 səh.
**417.** Afaq İsmayılova. Kütləvi informasiya vasitələrində işlənən terminlər lüğəti (redaktor), Bakı, "Təknur" nəşriyyatı, 2012, 143 səh.
**418.** Nizami Gəncəvi-870. Məqalələr toplusu (konfrans materialları; rəyçi), Bakı, "Elm" nəşriyyatı, 2012, 210 səh.
**419.** Azərbaycan dilçiliyi müntəxəbatı. II cild. (redaktor). Bakı,"Abiş Alorço" nəşriyyatı, 2013, 438 səh.
**420.** Məsud Mahmudov. Kompüter dilçiliyi (rəyçi). Bakı, "Elm və təhsil" nəşriyyatı, 2013, 351 səh.
**421.** Təranə Xəlilova. Azərbaycanca, türkcə, ingiliscə izahlı inşaat terminləri lüğəti (redaktor və ön sözün müəllifi), Bakı, "Elm və təhsil" nəşriyyatı, 2013, 360 səh.
**422.** Terminologiya məsələləri (ön sözün müəllifi və redaktoru), Bakı, "Elm" nəşriyyatı, 2013, №1, 172 səh.
**423.** Terminologiya məsələləri (ön sözün müəllifi və redaktoru), Bakı, "Elm" nəşriyyatı, 2013, №2, 181 səh.
**424.** Tağı Əhmədov, Qivami Abbasov. Korroziya ilə bağlı terminlərin izahlı lüğəti (redaktor və ön sözün müəllifi), Bakı, "Elm" nəşriyyatı, 2013, 332 səh.
**425.** S.K. Gözəlov, R.T.Məmmədov, B. F. Namazov. Avtomobil nəqliyyatı terminləri lüğəti (rusca-azərbay-

canca; redaktor və ön sözün müəllifi), Bakı, "Nurlar" nəşriyyatı, 2013, 295 səh.
**426.** Mehdi Rəhimov. Kimya terminlərinin leksik-semantik təhlili (redaktor və ön sözün müəllifi), Bakı, "Elm və təhsil" nəşriyyatı, 2014, 168 səh.
**427.** Terminologiya məsələləri ( redaktor və ön sözün müəllifi). Bakı, "Elm" nəşriyyatı, 2014, №1, 207 səh.
**428.** Tahir İbrahimov. Ən şərəfli peşədir müəllimlik (redaktor və ön sözünün müəllifi), Bakı, "Elm və təhsil" nəşriyyatı, 2014, 240 səh.
**429.** Adilə Nəzərova. Fəlsəfə terminlərinin izahlı lüğəti (redaktor və ön sözünün müəllifi), Bakı, "Elm və təhsil" nəşriyyatı, 2014, 224 səh.
**430.** Terminologiya məsələləri (ön sözün müəllifi və redaktoru), Bakı, "Elm" nəşriyyatı, 2014, №2, 200 səh.
**431.** Qulu Məhərrəmli, Rafiq İsmayılov. Məktəblinin alınma sözlər lüğəti (redaktor), Bakı, "Altun" nəşriyyatı, 2014, 240 səh.
**432.** Tarixləşən xatirələr. Göyçədən başlayan həyat yolu (redaktor və ön sözün müəllifi), I cild, "İstanbul" nəşriyyatı, 2015, 356 səh.
**433.** Tahir İbrahimov. Tarixləşən xatirələr; Göyçədən başlayan həyat yolu (redaktor və ön sözün müəllifi), II cild, "İstanbul" nəşriyyatı, 2015, 356 səh.
**434.** Səbinə Alməmmədova. Müasir Azərbaycan dilində alınmaların assimilyasiya prosesi (redaktor və ön sözün müəllifi), Bakı, "Avropa" nəşriyyatı, 2015, 192 səh.

**435.** A.S.Kəngərli, Ə.S.Məmmədov, E.B.Cavadzadə. Su təchizatı və kanalizasiya sistemlərinə aid rusca-azərbaycanca izahlı lüğət (redaktor və ön sözün müəllifi), Bakı, “Elm” nəşriyyatı, 2015, 270 səh.
**436.** Terminologiya məsələləri ( redaktor və ön sözün müəllifi ), Bakı, “Elm” nəşriyyatı, 2015, №1, 206 səh.
**437.** Ə.T.Həzərxanov, E.M.Nəcəfov. Logistika terminlərinin izahlı lüğəti (redaktor və ön sözün müəllifi), Bakı, “Çaşıoğlu” nəşriyyatı, 2015, 492 səh.
**438.** Аббас Аббасов, Кямала Нахвердиева. Англо-руский словар (редактор), Баку, “MMC” nəşriyyatı, 2015, 310 стр.
**439.** Terminologiya məsələləri (redaktor və ön sözün müəllifi), Bakı, “Elm” nəşriyyatı, 2015, №2, 172 səh.
**440.** Fazilə Göyçəli. Göyçə nisgili (redaktor və ön sözün müəllifi), Bakı, “APİ” nəşriyyatı, 2015, 234 səh.
**441.** Səbinə Məmmədova. İngiliscə- rusca-azərbaycanca kargüzarlıq terminləri lüğəti (redaktor və ön sözün müəllifi), Bakı, “Avropa” nəşriyyatı, 2015,144 səh.
**442.** M.Nağısoylu. Elmin zirvələrində (redaktor və ön sözün müəllifi), Bakı, “Avropa” nəşriyyatı, 2016, 176 səh.
**443.** Terminologiya məsələləri ( redaktor və ön sözün müəllifi). Bakı, “Elm” nəşriyyatı, 2016, №1, 234 səh.
**444.** Terminologiya məsələləri ( redaktor və ön sözün müəllifi). Bakı, “Elm” nəşriyyatı, 2016, №2, 245 səh.
**445.** Səbinə Alməmmədova. Müasir Azərbaycan dilində alınma terminlərin nizamasalma prosesinin nə-

zəri problemləri (elmi redaktor), Bakı, "Avropa" nəşriyyatı, 2016, 176 səh.

**446.** Süleyman Həsənov, Səməndər Allahverdiyev. İdman terminlərinin izahlı lüğəti ( redaktor və ön sözün müəllifi), Bakı, "Elm və təhsil" nəşriyyatı, 2016, 554 səh.

**447.** İkram Qasımov. Azərbaycan terminologiyasının əsasları (elmi redaktor), "Avpoliqraf" nəşriyyatı, Bakı, 2017, 236 səh.

**448.** Terminologiya məsələləri (redaktor və ön sözün müəllifi), Bakı, "Elm" nəşriyyatı, 2017, №1, 240 səh.

**449.** Terminologiya məsələləri (redaktor və ön sözün müəllifi), Bakı, "Elm" nəşriyyatı, 2017, № 2, 260 səh.

**450.** Tahir İbrahimov. Mən keçmişimlə yaşamışam (redaktor), IV cild, Bakı, "Elm və təhsil" nəşriyyatı, 2017, 304 səh.

**451.** Ş.H.Həsənov, K.Ə.Əliyev, Y.H.Bəhərçinov. Avtomobil yollarına dair terminlər lüğəti (redaktor və ön sözün müəllifi), Bakı, "Oskar" nəşriyyatı, 2017, 614 səh.

**452.** Elvin Atakişiyev. Dilçilik terminlərinin leksik-semantik təhlili (rəyçi), "Elm və təhsil" nəşriyyatı, Bakı, 2017, 160 səh.

**453.** Nadir Məmmədli. Azərbaycan dilində alınma terminlər (rəyçi), Bakı, "Elm və təhsil" nəşriyyatı, 2017, 488 səh.

**454.** Solmaz Süleymanova. Bolqarca-azərbaycanca lüğət (redaktor), Bakı, "Avropa" nəşriyyatı, 2017, 690 səh.

**455.** Hüseyn İsmayılov. Aşıq Ələsgər (redaktor və ön sözün müəllifi), Bakı, "Ekoprint" nəşriyyatı, 2017, 152 səh.

**456.** Nigar Vəliyeva. Azərbaycanca-ingiliscə-rusca izahlı kommunikasiya terminlər lüğəti (rəyçi), Bakı, "Poliqrafiya MMC" nəşriyyatı, 2018, 218 səh.
**457.** Terminologiya məsələləri ( redaktor və ön sözün müəllifi), Bakı, "Elm" nəşriyyatı, 2018, №1, 240 səh.
**458.** Terminologiya məsələləri (redaktor və ön sözün müəllifi), Bakı, "Elm" nəşriyyatı, 2018, №2, 275 səh.
**459.** Günel Paşayeva. Azərbaycan dili terminologiyasının inkişafında alınmalar (redaktor və ön sözün müəllifi), Bakı, "Azəri" nəşriyyatı, 2018,188 səh.
**460.** Kənan Yusifzadə. Hərbi-tibbi terminlərin izahlı lüğəti (redaktor və ön sözün müəllifi), Bakı, "Apastrofa" nəşriyyatı, 2018, 1094 səh.
**461.** Həbib Mirzəyev. H.Arif poeziyasının leksik xüsusiyyətləri (redaktor və ön sözün müəllifi), Bakı, "Elm və təhsil" nəşriyyatı, 2018, 157 səh.
**462.** Aysel Qəribli. Türk dili, türk ləhcələri və türk dilləri anlayışlarının genotipologiyası (rəyçi), Bakı, "Elm və təhsil" nəşriyyatı, 2018, 168 səh.
**463.** Kazım Şərifov. Rusca-azərbaycanca dəmiryol nəqliyyatı lüğəti (redaktor və ön sözün müəllifi), Bakı, "Şərq-Qərb" nəşriyyatı, 2018, 1248 səh.
**464.** Məsud Mahmudov. Türk dillərinin milli korpusları (rəyçi), Bakı, "Elm və təhsil" nəşriyyatı, 2018, 434 səh.
**465.** Şəlalə Hümmətli. Abdulla bəy Əfəndizadə. Son türk əlifbası (rəyçi), Bakı, "Elm və təhsil" nəşriyyatı, 2018, 144 səh.

**466.** Terminologiya məsələləri ( redaktor və ön sözün müəllifi), Bakı, “Elm” nəşriyyatı, 2019, №1, 285 səh.

**467.** Abbasov Abbas, Kudiyeva Gunay, Tahiyeva Elnara, Phasayeva Parvana. English-russion-geoqraphical terms (redaktor), Baki, “Elm və təhsil” nəşriyyatı, 2019, 236 səh.

**468.** Terminologiya məsələləri (redaktor və ön sözün müəllifi), Bakı, “Elm” nəşriyyatı, 2019, №2, 233 səh.

**469.** Fidan Qurbanova. Azərbaycan dilində şəxs adlarının izahlı lüğəti (redaktor), Bakı, 2019, 1326 səh.

**470.** Həbib Mirzəyev. Poeziya dilində təkrarların üslubi imkanları (redaktor və ön sözün müəllifi), Bakı, ”Elm və təhsil” nəşriyyatı, 2019, 213 səh.

**471.** Hüseyn Mirzəyev, Sevda Quliyeva, Sevinc Səfərova. Təhsil terminlərinin izahlı lüğəti (redaktor), Bakı, “Zərdabi” nəşriyyatı, 2019, 184 səh.

**472.** Terminologiya məsələləri ( redaktor və ön sözün müəllifi), Bakı, “Elm” nəşriyyatı , 2020, №1, 293 səh.

**473.** Səbinə Alməmmədova. Müasir Azərbaycan dilində alınma terminlərin unifikasiya formaları (redaktor və ön sözün müəllifi), Bakı, “Avropa” nəşriyyatı, 2019, 326 səh.

**474.** Yusif Ağbulaqlı. Ağbulaq dağlarında ( redaktor və ön sözün müəllifi), Bakı, “Elm və təhsil” nəşriyyatı, 2019, 349 səh.

**475.** Terminologiya məsələləri (redaktor və ön sözün müəllifi), Bakı, ”Elm” nəşriyyatı, 2020, №1, 393 səh.

# ƏSƏRLƏRİ HAQQINDA YAZILANLAR

**476.** Sevil Mehdiyeva. Fizika-riyaziyyat terminlərinin ilk tədqiqi. "Xalq" qəzeti, 1997, 12 sentyabr.

**477.** Sevil Mehdiyeva, A. Əlizadə. Azərbaycan dili terminologiyasının problemlərinin tədqiqi". "Xalq" qəzeti, 2002, 15 dekabr.

**478.** İsmayıl Kazımov. Azərbaycan dilində terminologiya problemlərinin tədqiqi, Elm qəzeti, 2008, 28 fevral.

**479.** Müseyib Məmmədov. Azərbaycan dili terminologiyasına aid qiymətli tədqiqat. Elm qəzeti, 2006, 18 mart.

**480.** Müseyib Məmmədov. Azərbaycan dilində terminologiyanın təşəkkülü və inkişafı. "Respublika" qəzeti. 2006, 2 mart.

**481.** Buludxan Xəlilov. Azərbaycan dili terminologiyasının problemlərinin tədqiqi, Terminologiya məsəlləri, Bakı, 2006, səh.119-122.

**482.** Sima Quliyeva, Terminologiya problemlərinin tədqiqi, "Kredo" qəzeti, Bakı, 2010, 17 iyul.

**483.** İsmayıl Məmmədov. Elm naminə yaşayan illər, Elm qəzeti, Bakı, 2010, 17 iyun .

**484.** Afina Əlizadə, Türkan Əfəndiyeva. Şərəflə yaşanan ömür, "Ədəbiyyat qəzeti", 2010, 18 iyun.

**485.** Şəbnəm Həsənli. Müqəddəs amallar uğrunda, "Tədqiqlər", 2010, №2, "Nurlan" nəşriyyatı, səh. 178-184.

**486.** Sima Quliyeva, Solmaz Süleymanova. Sadıqova Sayalı Allahverdi qızı, (anadan olmasının 50 illiyi) “Türkologiya” jurnalı, Bakı, “Elm” nəşriyyatı , 2010 , № 1-2, səh. 100-102.

**487.** Qətibə Mahmudova. Həyatı gənclərə örnək olası alim qadın, “Tədqiqlər”, Bakı, “Nurlan” nəşriyyatı 2010, №2, səh.185-189.

**488.** Təranə Şükürova. Elmə vurğun ömür, “Tədqiqlər”, Bakı, “Nurlan” nəşriyyatı, 2010, №2, səh. 190-192.

**489.** Sevil Mehdiyeva. Görkəmli dilçi-alim, “Respublika” qəzeti, 2010, 20 iyun,

**490.** Əli Rza Xələfli. Ömrün yaradıcılıq yolu, “Kredo”, 2010, 5 iyun.

**491.** Solmaz Süleymanova. Azərbaycan dilində terminologiyanın standartlaşma formaları, Bakı, “Elm” nəşriyyatı, 2015, səh. 103-111.

**492.** Nəriman Seyidəliyev. Dilçilik elminə dəyərli töhfə, “Respublika”, 2018, 6 iyun.

**493.** Şəlalə Hümbətova. Yüzillik bir tarixə elmi baxış, AXC, “Türküstan”, 2018, 26 iyun.

**494.** İsmayıl Kazımov. Dilçilik terminlərinin izahlı lüğəti, Bakı, “525-ci qəzet”, 2018, 23 may.

**495.** Baba Məhərrəmli. İzahlı dilçilik terminləri lüğəti, Terminologiya məsələləri, Bakı, “Elm” nəşriyyatı, 2018, №2, səh. 239-242.

**496.** Şəbnəm Həsənli Qəribova. Sayalı Sadıqova, Türkiyə dışındakı türk dünyası türkoloqları, 2019, Türkiye, Akcağ, I c. səh. 369-375.

**497.** Möhsün Nağısoylu. Zamana sığmayan ömür, Bakı, Respublika qəzeti, 2020, 21 iyun.
**498.** Səbinə Almәmmədova. Azərbaycan ziyalısının ən gözəl xüsusiyyətlərini özündə cəmləşdirən alim, Bakı, “Azərbaycan” qəzeti, 2020, 23 iyun.
**499.** Mübariz Yusifov. Sayalı Sadıqova-60, “Terminologiya məsələləri”, Bakı, “Elm” nəşriyyatı, 2020, №1, səh. 284-287.
**500.** Məhərrəm Hüseynov. Şərəfli ömrün illəri, Bakı, Elm qəzeti, 20 iyun.
**501.** Buludxan Xəlilov. Görkəmli dilçi alim, Bakı, “Kredo” qəzeti, 2020, 22 iyun.
**502.** Telman Quliyev. Alimin leksikoqrafik tədqiqatları, Bakı, “Kredo”qəzeti, 2020, 22 iyun.
**503.** İsmayıl Məmmədov. Elm naminə yaşanan illər, Bakı, “Kredo”qəzeti, 2020, 22 iyun.
**504.** İsmayıl Kazımov. Elm fədaisi, Bakı, “Kredo”qəzeti, 2020, 22 iyun.
**505.** Vəfa Abdullayeva-Nəbiyeva . Səmimi insan, xeyirxah alim, Bakı, “Kredo” qəzeti, 2020, 22 iyun.
**506.** Mahirə Hüseynova. Şərəflə yaşanan ömür, Bakı, “Filoloq”qəzeti, “APİ-nin nəşri”, 2020,12 iyul
**507.** Əli Rza Xələfli, Elmin və nüfuzun gücü, Bakı, “Kredo” qəzeti, 2020, 22 iyun.
**508.** İsmayıl Kazımov. Azərbaycan dilinin inkişafı və onu zənginləşdirən mənbələrin tədqiqi, Bakı, “Respublika” qəzeti, 2020, 3 iyul

## RƏHBƏRLİK ETDİYİ DİSSERTASİYALAR

**509.** İsrafilova Sofiya Fuad qızı. Azərbaycan dilində informatika terminlərinin leksik-semantik təhlili. Bakı, AMEA, Nəsimi adına Dilçilik İnstitutu, 2006, filologiya üzrə fəlsəfə doktoru

**510.** Xəlilova Təranə Əhmədağa qızı. Azərbaycan dilində inşaat terminlərinin linqvistik təhlili. Bakı, BDU, 2007, filologiya üzrə fəlsəfə doktoru .

**511.** Quliyev Telman Ziyatxan oğlu. Azərbaycan ədəbi dilində terminoloji yeniləşmə prosesi (1920-1990-cı illər). Bakı, 2007, Nəsimi adına Dilçilik İnstitutu, filologiya elmləri doktoru.

**512.** Qasımova Xanım Ağasəf qızı. Müstəqillik illərində Azərbaycan dilində termin yaradıcılığının əsas istiqamətləri. Bakı, 2007, filologiya üzrə fəlsəfə doktoru .

**513.** Hacıyeva Mətanət Həşim qızı. Azərbaycan dilində hüquq terminlərinin linqvistik təhlili. Bakı, 2008, filologiya üzrə fəlsəfə doktoru .

**514.** Rəhimov Mehdi Nizami oğlu. Azərbaycan və ingilis dilində kimya terminlərinin linqvistik təhlili. Bakı, 2008, filologiya üzrə fəlsəfə doktoru .

**515.** Əzizova Gülnarə Tanrıverdi qızı. Mahmud Kaşğarinin "Divanü-luğat-it-türk" əsərinin kulinariya leksikası. Bakı, 2013, filologiya üzrə fəlsəfə doktoru .

**516.** Hüseynova Jalə Aslan qızı. Azərbaycan və ingilis dillərində iqtisadiyyat terminləri. Bakı, 2014, filologiya üzrə fəlsəfə doktoru .

**517.** Ağamirzəyeva Esmira Həmzəağa qızı. Milli dillərin termin yaradıcılığında alınmalar. (Azərbaycan və ingilis dilləri materialları əsasında). Bakı, 2016, filologiya üzrə fəlsəfə doktoru .
**518.** Orucov Məhərrəm Alı oğlu. Azərbaycan dilində fransız mənşəli terminlərin linqvopraqmatik xüsusiyyətləri. Bakı, 2017, filologiya üzrə fəlsəfə doktoru .
**519.** Paşayeva Günel Baxşeyiş qızı. Azərbaycan dilində alınma terminlər (2000-2010-cu illər). Bakı, 2017, filologiya üzrə fəlsəfə doktoru .
**520.** Abdullayeva-Nəbiyeva Vəfa Ariz qızı. Müasir Azərbaycan dilində terminoloji leksikanın inkişaf istiqamətləri. Bakı, 2019, filologiya üzrə fəlsəfə doktoru.
**521.** Alməmmədova Səbinə Məmməd qızı. Müasir Azərbaycan dilində alınmaların unifikasiya və standartlaşdırılması, Bakı, 2018, filologiya elmləri doktoru.
**522.** Zeynalova Gülnarə Ələkbər qızı. Azərbaycan dilində definitiv terminlərin yaranma prosesi. Bakı, 2020, filologiya üzrə fəlsəfə doktoru .
**523.** Əhmədova Pəri İlham qızı. Azərbaycan dilində pedaqoji terminlərin linqvistik təhlili. Bakı, 2020, filologiya üzrə fəlsəfə doktoru .

## RƏSMİ OPPONENTLİK ETDİYİ DİSSERTASİYALAR

**524.** Babayeva Sima Kərim qızı. Azərbaycan dilində arxiv terminlərinin linqvistik təhlili, Bakı, BDU, 2000, filologiya üzrə fəlsəfə doktoru.

**525.** Mirzəyev Həbib Adil oğlu. Azərbaycan dilində kargüzarlıq terminləri. AMEA Nəsimi adına Dilçilik İnstitutu, 2003, 9 noyabr, filologiya üzrə fəlsəfə doktoru.

**526.** Qasımov İkram Ziyad oğlu. Azərbaycan dilində hərbi leksika (təşəkkülü, inkişafı və sabitləşməsi, doktorluq), Bakı, AMEA Nəsimi adına Dilçilik İnstitutu, 2004, filologiya elmləri doktoru.

**527.** Qədimova Həqiqət Kərim qızı. Müasir Azərbaycan dilində qoşulma konstruksiyalar, Bakı, AMEA Nəsimi adına Dilçilik İnstitutu, 2005, filologiya üzrə fəlsəfə doktoru.

**528.** Hacıyeva Aytəkin Kamal qızı. Zoometaforizmlər (ingilis və Azərbaycan dillərinin materialları əsasında). Bakı, AMEA Nəsimi adına Dilçilik İnstitutu, 2005, filologiya üzrə fəlsəfə doktoru.

**529.** Cəmilə Rüfət qızı Rüstəmova. Müasir türk və Azərbaycan dillərində diplomatik terminlərin struktur-semantik təhlili. Bakı, AMEA Nəsimi adına Dilçilik İnstitutu, 2006, filologiya üzrə fəlsəfə doktoru.

**530.** Allahverdiyeva Gülnarə Tofiq qızı. Türk və Azərbaycan dillərində hüquq terminologiyasının for-

malaşması və inkişafı. Bakı, AMEA Nəsimi adına Dilçilik İnstitutu, 2006, filologiya üzrə fəlsəfə doktoru.

**531.** Şükürova Təranə Çərkəz qızı. Müstəqillik qazanmış türk dövlətlərinin dillərində termin yaradıcılığının əsas meylləri. Bakı, AMEA Nəsimi adına Dilçilik İnstitutu, 2006, filologiya üzrə fəlsəfə doktoru.

**532.** Məmmədov Ramiz Fəsi oğlu. Müstəqillik illərində hərbi terminlərin inkişafı. Bakı, AMEA Nəsimi adına Dilçilik İnstitutu, 2007, filologiya üzrə fəlsəfə doktoru.

**533.** Mustafayeva Şövkət Mustafa qızı. Müasir Azərbaycan dilində ingilis dilində alınma texniki terminlər. Bakı, AMEA Nəsimi adına Dilçilik İnstitutu, 2007, filologiya üzrə fəlsəfə doktoru.

**534.** Qurbanova Lalə Qadir qızı. Dilin leksik sistemində terminoloji leksikanın yeri. Bakı, AMEA Nəsimi adına Dilçilik İnstitutu, 2005, filologiya üzrə fəlsəfə doktoru.

**535.** Cabbarova Gülnarə Çingiz qızı. İkidilli lüğətlərdə terminlərin verilməsinin üsul və vasitələri (azərbaycanca-ingiliscə, ingiliscə-azərbaycanca lüğətlər əsasında). Bakı, AMEA Nəsimi adına Dilçilik İnstitutu, 2007, filologiya üzrə fəlsəfə doktoru.

**536.** Məmmədova Gülbəniz Sədulla qızı. Fransız və Azərbaycan dillərində bitki adlarının linqvistik təhlili. Bakı, AMEA Nəsimi adına Dilçilik İnstitutu, 2013, filologiya üzrə fəlsəfə doktoru.

**537.** Hacıyeva Natəvan Havar qızı. Müstəqillik dövrləri Azərbaycan ədəbiyyatının dil və üslub xüsusiyyətləri. Bakı, AMEA Nəsimi adına Dilçilik İnstitutu, 2015, filologiya elmləri doktoru.

**538.** Nəzərova Adilə Həsən Qızı. Fəlsəfə terminlərinin leksik-semantik təhlili, Bakı, AMEA Nəsimi adına Dilçilik İnstitutu, 2016, filologiya üzrə fəlsəfə doktoru.

**539.** Əhmədova Kəmalə Şamil qızı. Azərbaycan dilində çoxkomponentli mürəkkəb sözlər. Bakı, AMEA Nəsimi adına Dilçilik İnstitutu, 2017, filologiya elmləri doktoru.

**540.** Qocayeva Şükufə Kamran qızı. Dildə tabu hadisəsi. Bakı, AMEA Nəsimi adına Dilçilik İnstitutu, 2016, filologiya üzrə fəlsəfə doktoru.

**541.** Atakişiyev Elvin Mübariz oğlu. Müasir Azərbaycan dilində dilçilik terminlərinin linqvistik təhlili. Bakı, AMEA Nəsimi adına Dilçilik İnstitutu, 2017, filologiya üzrə fəlsəfə doktoru.

**542.** Qarayeva Aynur Valeh qızı. Azərbaycan dilində dini və mifoloji leksika. Bakı, AMEA Nəsimi adına Dilçilik İnstitutu, 2018, filologiya üzrə fəlsəfə doktoru.

**543.** Mirzəyeva Günel Əmirxan qızı. Müstəqillik dövrü Azərbaycan şeirinin dil və üslub xüsusiyyətləri. Bakı, AMEA Nəsimi adına Dilçilik İnstitutu, 2018, filologiya üzrə fəlsəfə doktoru.

**544.** Quliyeva Əfsanə Nəsimi qızı. Türk və Azərbaycan dillərində iqtisadiyyat terminləri. Bakı, AMEA Nəsimi adına Dilçilik İnstitutu, 2018, filologiya üzrə fəlsəfə doktoru.

**545.** Məmmədova Yeganə Xanoğlan qızı. Məktəbəqədər yaşlı uşaqların nitqinin inkişaf etdirilməsinin məzmunu və yolları. Bakı, Azərbaycan Dövlət Pedaqoji Universiteti, 2018, filologiya üzrə fəlsəfə doktoru.

**546.** Məmmədova Mələk Məcid qızı. İnformasiya-kommunikasiya texnologiyaları sahəsində işlədilən terminlərin ekstralinqvistik və linqvistik xüsusiyyətləri. Bakı, AMEA Nəsimi adına Dilçilik İnstitutu, 2018, filologiya üzrə fəlsəfə doktoru.

## TƏLTİFLƏRİ

**2005** – AMEA-nın 60 illiyi ilə əlaqədar Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyətinin Fəxri Fərmanı ilə təltif olunmuşdur.

**2006** – Azərbaycan Dillər Universiteti I Türkoloji Qurultayın 80 illiyi ilə əlaqədar keçirilmiş Respublika elmi-nəzəri konfransda Fəxri Fərmanla təltif olunmuşdur.

**2010 –** Anadan olmasının 50 illiyi ilə əlaqədar Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyətinin Fəxri Fərmanı ilə təltif olunmuşdur.

**2010** – Türk Dil Qurumu tərəfindən "Türk cümhuriyyetləri bilisim və ortaq terimler alanında iş birliyi Forumu" nda mükafatlandırılmışdır.

**2012** – Azərbaycan Respublikası Təhsil Nazirliyinin Fəxri Fərmanı ilə təltif olunmuşdur.

**2015** – Azərbaycan Respublikasının Prezidentinin sərəncamı ilə "Tərəqqi medalı" ilə təltif edilmişdir.

**2016** – Azərbaycan Milli Elmlər Akademiyası Nəsimi adına Dilçilik İnstitutu tərəfindən səmərəli fəaliyyətinə görə "İlin ziyalısı" adına layiq görülmüşdür.

**2017** – AMEA Nəsimi adına Dilçilik İnstitutunun Elmi Şurasının qərarı ilə "İlin alimi" adına layiq görülmüşdür.

**2017** – Azərbaycan Kütləvi İnformasiya Şurası tərəfindən KİV-dəki fəaliyyətinə görə "İlin nüfuzlu

ziyalısı" ali media mükafatı laureatı adına layiq görülmüşdür.
**2018** – Bakı Dövlət Universiteti "Azərbaycan Xalq Cümhuriyyəti-100: Müsəlman Şərqində ilk Parlamentli Respublika" Beynəlxalq elmi konfransda məruzəsinə görə Fəxri Fərmanla təltif edilmişdir.
**2018** – Yaradıcılıq fəaliyyətinə görə KİV və Həmkarlar İttifaqı Rəyasət Heyətinin qərarı ilə "Qızıl qələm" media mükafatına layiq görülmüşdür.
**2019** – Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən "Müasir dilçiliyin aktual problemləri" Beynəlxalq elmi konfransının təşkilat komitəsində iştirakına görə Fəxri Fərmanla təltif edilmişdir.
**2019** – Azərbaycan Kütləvi İnformasiya Vasitələri Həmkarlar İttifaqı (Azər.KİVİHİ) Rəyasət Heyətinin qərarı ilə elm sahəsində göstərdiyi uğurlu xidmətlərə görə Azərbaycanın Fəxri media mükafatına layiq görülmüşdür.

## HAQQINDA YAZILANLARDAN SEÇMƏLƏR

## TERMİNOLOGİYA PROBLEMLƏRİNİN GÖRKƏMLİ TƏDQİQATÇISI

Filologiya elmləri doktoru, professor Sayalı Sadıqova "Azərbaycan dilində fizika-riyaziyyat terminologiyasının formalaşması və inkişafı" (Bakı, "Elm", 1997), "Azərbaycan dili terminologiyasının nəzəri problemləri" (Bakı, "Elm", 2002), "Azərbayacan dilində terminologiyanın təşəkkülü və inkişafı" (Bakı, "Elm", 2005), "Терминологические словосочетания в Азербайджанском литературном языке" (Баку, "Елм", 2007), "Müasir Azərbaycan ədəbi dilində termin yaradıcılığı prosesi" (Bakı, "Elm", 2010), "Azərbaycan dilinin terminologiyası" (Bakı, Elm, 2011), üç cilddə "Dilçiliyin nəzəri problemləri"(Bakı, Elm, 2010; 2011; 2012;), "Azərbaycan dilində terminologiyanın standartlaşdırma formaları", (Bakı, Elm, 2015), "Müstəqillik illərində terminologiyanın inkişafı" və s. (Bakı, Elm, 2016)" monoqrafiyalarının və 340-dan artıq elmi məqalənin müəllifidir. Görkəmli alim dilçilik elminə olan sonsuz məhəbbəti, zəhmətlə yoğrulan fitri istedadı, şəxsiyyətinin mənəvi bütövlüyü, çoxaspektli tədqiqatlarının səviyyəsi ilə seçilən ziyalıdır. Elm sahəsində təkcə savad, elmi bilik, bu bilikdən düzgün və səmərəli istifadə etmək kifayət et-

mir, həmçinin bu sahə mübarizlik, cəsarət, qətiyyət tələb edir. Bu qətiyyətlik onun yaradıcılığının mayasını təşkil edir. O, ana dilinin bir çox problemləri haqqında ilk söz deyən, məntiqə əsaslanan, dilçilik problemlərini riyazi dəqiqliklə araşdıran tədqiqatçıdır. Dilçiliyin son illərdəki inkişafının mühüm nailiyyətlərindən biri də terminologiyanın yaranması və dilçiliyin müstəqil sahəsi kimi formalaşmasıdır. Terminologiya hazırda dilçiliyin müstəqil bir sahəsinə çevrilmişdir. Bu sahənin ardıcıl tədqiqində və inkişafında, nəzəri problemlərinin araşdırılmasında S.A.Sadıqovanın mühüm xidmətləri vardır. Alimin elmi uğurları ilə tanış olanda onun məhsuldar fəaliyyətinə qibtə edilir. İstedadlı dilçi, publisist, neçə-neçə monoqrafiyaların, elmi məqalələrin müəllifi S.Sadıqovanın elmi fəaliyyətinin əsas istiqamətini Azərbaycan dilində terminologiyanın təşəkkülü, formalaşması və inkişafının öyrənilməsi, tədqiqi təşkil edir. Terminologiyanın dilçiliyin müstəqil bir sahəsinə çevrilməsində S.A.Sadıqovanın mühüm xidmətləri vardır. Müəllifin monoqrafiyalarının bir çoxu dilin daim inkişafda olan terminoloji leksikasına həsr olunmuşdur. Bu əsərlərdə elmin, texnikanın inkişafının müasir mərhələsində terminologiyanın formalaşması, terminlərin yaranma mənbələri, mənşəyi və nəzəri məsələləri ilə bağlı aktual problemlər nəzəri aspektdə araşdırılmışdır. Monoqrafiyalarda qoyulan problemlər – terminlərin mahiyyəti, dilin leksik sistemində yeri, terminlərin yaranma prosesi, ya-

ranma yolları, struktur-semantik xüsusiyyətləri, terminlərin terminoloji lüğətlərdə əksi, verilmə prinsipləri və s. məsələlər öz aktuallığı ilə diqqəti cəlb edir. Müəllifin tədqiqatlarında real faktlardan çıxış edilərək əsaslandırılır ki, Azərbaycan dilində terminologiyanın təşəkkülü və inkişafı tarixi qədimdir. Çünki termin yaradıcılığı cəmiyyətin məişəti, ictimai həyatı ilə, onun elmi-iqtisadi və mədəni inkişafı ilə sıx bağlıdır. Onun ilk monoqrafik əsəri "Azərbaycan dilində fizika-riyaziyyat terminologiyasının formalaşması və inkişafı tarixi" adlanır. Monoqrafiyada müəllif fizika-riyaziyyat elminin terminoloji leksikasının tarixən yaranmasından müasir dövrümüzədək keçdiyi yolu izləmiş, zənginləşmə mənbə və üsulları təhlil edilərək Azərbaycan dilində bu sahənin inkişafı haqqında bütöv təsəvvür yaratmışdır. Tədqiqatın əhəmiyyətli cəhətlərindən biri də odur ki, Sayalı Sadıqova Azərbaycan dilində fizika-riyaziyyat terminlərin yaranma tarixinə ümumtürk kontekstindən yanaşaraq onun tarixinin daha əvvəlki dövrlərdən formalaşdığını, qədim türk yazılı abidələrindən başlayaraq müasir dövrümüzə qədər inkişaf etdiyini ardıcıllıqla izləmiş, irəli sürdüyü elmi mülahizələrini ayrı-ayrı yazılı mənbələrdən seçərək, qruplaşdırdığı dil faktları ilə əsaslandırmışdır. Bütövlükdə, Azərbaycan ədəbi dilinin yaranmasında, inkişafında və kamilləşməsində öz dövrünün tələbləri səviyyəsində dayanan, özünəməxsus mövqeyi olan görkəmli alimlərin əsərləri zəngin faktlarla araş-

dırılmışdır. Bu terminoloji leksikanın formalaşma və inkişaf tarixi ilk dəfə sistemli şəkildə alim tərəfindən araşdırılmışdır.

Elmlərin inkişafı terminşünaslıqda öz inikasını tapır. S.Sadıqova uzun müddətdir ki, bu sahəyə rəhbərlik edir və elmin-texnikanın müxtəlif sahələri ilə bağlı nəşr olunan terminoloji lüğətlər təkcə Respublikamızda deyil, türkdilli dövlətlər tərəfindən də rəğbətlə qarşılanır. Onun bu sahədəki təcrübəsi elmin müxtəlif sahələrinin terminologiyasının nizama salınmasında mühüm rolu olmuşdur. Eyni zamanda ədəbi dilin zənginləşməsində terminoloji lüğətlər zəngin mənbədir. 1998-cı ildə S.Sadıqovanın fizika-riyaziyyatla bağlı tərtib etdiyi lüğət nəşr olunmuşdur. Ön sözdə fizika-riyaziyyat terminlərinin inkişaf tarixi, yaranma mənbələri, üsulları, beynəlxalq terminlər, onların terminoloji lüğətlərdə verilmə prinsipləri müəyyənləşdirilmiş və həmin sahə ilə bağlı fizika-riyaziyyat terminləri toplanmış və izahı (Bakı, Elm, 1998) verilmişdir. Alimin elmi yaradıcılığında nəzəriyyə ilə tətbiqi məsələlər qarşılıqlı əlaqədə araşdırılır. Müasir dövrdə, elmi-texniki tərəqqi dövründə dilimiz sürətlə inkişaf edir. Dildə yeni sözlər yaranır. Bununla yanaşı dilə yeni sözlər daxil olur. Bunların nəzəri məsələləri onun elmi tədqiqatlarında linqvistik təhlil edilmişdir. Bu baxımdan “Azərbaycan dilinin terminologiyası”(Bakı, Elm, 2011, 378 səh.) monoqrafiyası qoyulan problemlərin aktuallığı ilə diqqəti cəlb edir. Əsərdə milli ter-

minologiyanın yaranma mənbələri və üsulları nəzəri aspektdə zəngin faktlarla təhlil edilmişdir. Elmi axtarışlarında konkret faktdan, ilkin mənbədən çıxış etmək, problemin mahiyyətini peşəkarlıqla araşdırmaq alimin tədqiqat üsulunun ana xəttini təşkil edir.

Dövrün tələblərini nəzərə alaraq S.Sadıqova tərəfindən ilk dəfə olaraq hazırkı dövrdə mətbuatda, elmi-texnikanın müxtəlif sahələrində işlənən yeni terminlər toplanaraq iki cilddə "İzahlı yeni terminlər lüğəti"i nəşr olunmuşdur. Tərtib edilən lüğətdə müxtəlif sahələrə – iqtisadiyyat, jurnalistika, informatika, hüquq, geologiya, aviasiya, diplomatiya və s. aid yeni yaranan terminlər, yəni indiyə qədər dilin lüğət tərkibində öz əksini tapmayan terminlər toplanmış və onların izahı verilmişdir. Onu da qeyd edək ki, lüğətin ən mühüm dəyəri ondan ibarətdir ki, eyni anlayışları bildirən müxtəlif terminlərə rast gəlindiyi kimi, bir terminin müxtəlif sahədə bir neçə anlayışı ifadə etməsi halları da qeydə alınır. Bununla da dildə gedən proseslər real şəkildə lüğətdə öz əksini tapmışdır. Müəllifin qeyd etdiyi kimi dilin lüğət tərkibinin inkişaf mənbələrindən birini təşkil edən alınmaların izafiliyi həmin terminlərin seçilməsinə, işlənməsinə, onlara qarşılıq yaradılmasına xüsusi diqqət yetirməyi tələb edir. Hazırda mətbuatda, radio və televiziyada onlarla, yüzlərlə yeni terminlər işlədilir. Bunlar toplanılmış və işlənmə mənaları izah edilmişdir. Belə lüğətlərin nəşri dilin lüğət tərkibinin zənginləşmə və

inkişaf istiqamətlərinin müəyyənləşdirilməsində başlıca mənbədir.

S.Sadıqovanın rəhbərliyi altında nəşr olunan və eyni zamanda tərtibçisi olduğu “İzahlı dilçilik terminləri lüğəti”ində dilçiliyin ümumi anlayışları toplanmışdır. Tərtib olunan lüğətdə 8000 terminin definitiv tərifinə, şərhinə geniş yer verilmişdir. Lüğətdə dilçilik terminləri toplanıb sistemləşdirilmiş, lüğətə daxil edilən vahidlərin mənaları izah edilmişdir. Tərtib edilmiş lüğətdə elmi-tədqiqat və tədris prosesində daha çox işlənən terminlərin şərhinə geniş yer verilmişdir. Müsbət hallardan biri də odur ki, izah zamanı ənənəvi terminlərin tərifləri və izahı olduğu kimi saxlanılmışdır. Uzun illər və gərgin zəhmətinin məhsulu olan lüğət istifadəçilərin ən yaxın köməkçisidir. Alim yalnız terminoloji lüğətlərin deyil, eyni zamanda “Azərbaycan dilində şəxs adlarının izahlı lüğəti”(Bakı, Elm, 2016, 233 səh.) kimi bir sıra lüğətlərin tərtibçisidir. Onun tərtib etdiyi “Azərbaycan dilində şəxs adlarının izahlı lüğəti” Respublikamızda fəaliyyət göstərən qeydiyyat idarələrində yeni doğulan körpələrə adların qoyulmasında əsas vəsaitdir. Bu baxımdan praktik olaraq Azərbaycan dilinin tətbiqi işinin təkmilləşdirilməsi istiqamətində onun tərəfindən mühüm işlər görülür.

S.Sadıqova Azərbaycan ədəbi dilinin tarixi, ədəbi dil, terminologiya, nəzəri dilçiliklə bağlı 20 kitabın müəllifidir. Əsərlərinin bir çoxu xarici ölkələrdə nəşr olunmuşdur. Elmi-populyar məqalələri, ölkədə aparı-

lan dil siyasəti mövzusundakı silsilə məqalələri elmi dairələr və ictimaiyyət tərəfindən yüksək qiymətləndirilir. Respublikamızda, eləcə də xaricdə keçirilən respublika və beynəlxalq səviyyəli elmi konfranslarda fundamental elmi əsaslara malik məruzələrlə çıxış etmişdir. Bununla yanaşı Türkiyə (İstanbul) və Qazaxıstanda (Astana) təşkilat komitəsinin üzvü kimi iştirak etmiş, terminologiya bölməsinə rəhbərlik etmiş və 2011-2012-ci ildə Türkiyədə keçirilən Dil qurultayında nümayəndə heyəti kimi iştirak etmişdir. Onun rəhbərliyi ilə müdafiə etmiş onlarla elmlər namizədi və doktorlar terminologiyanın müxtəlif sahələri və problemləri ilə bağlı tədqiqatlar aparır. Uzun illər boyu apardığı gərgin elmi araşdırmaları belə bir fikir söyləməyə əsas verir ki, professor Sayalı Sadıqovanın dilçilikdə terminologiya məktəbinin yaradılmasında mühüm yeri və xidmətləri vardır.

***Nizami Cəfərov***
***akademik***

## TƏVAZÖKARLIQ VƏ ELMLİK İŞIĞINDA

Filologiya elmləri doktoru, professor Sayalı Sadıqova 1960-cı il iyunun 22-də Qərbi Azərbaycanın Göyçə mahalında anadan olmuşdur. 1967-ci ildə birinci sinfə getmiş, 1977-ci ildə həmin məktəbi əla qiymətlərlə bitirmişdir. 1977-ci ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin (APİ) filologiya fakültəsinə daxil olmuşdur. Oxuduğu illərdə elmi bacarığı, təşkilatçılığı ilə tələbələr arasında fərqlənmiş, İnstitut Həmkarlar təşkilatının sədri, Tələbə Elmi Cəmiyyətinin sədr müavini olmuşdur. İnstitutda keçirilən Tələbə Elmi Cəmiyyətinin keçirdiyi elmi konfranslarda fəal iştirak etmişdir. İkinci kursda oxuduğu illərdə ilk məqaləsi nəşr olunmuşdur. 1981-ci ildə həmin fakültəni fərqlənmə diplomu ilə bitirmişdir. 1981-1984-cü illərdə Azərbaycan dili ixtisası üzrə AMEA Nəsimi adına Dilçilik İnstitutunun Terminologiya şöbəsinin aspirantı olmuşdur. O illərdə Sayalı xanım 21 yaşında aspiranturaya qəbul olmuş ən gənc aspirantımız idi. Tədqiqatını da tezliklə tamamlayıb müzakirəyə verdi. Dissertasiya müzakirə olunduqdan sonra 1984-cü ildə AMEA Nəsimi adına Dilçilik İnstitutunda kiçik elmi işçi vəzifəsinə işə götürülmüşdür. Akademik M. Şirəliyev dəfələrlə qeyd edirdi ki, S. Sadıqovanın məqalələri elmiliyi ilə diqqəti cəlb edir. Ona görə də hələ müdafiə etməmişdən əvvəl məqalələri Akademiyanın "Xəbərlər"ində dərc olunmuşdur. Lakin Müdafiə

Şurası gec təsdiq olunduğuna görə namizədlik müdafiəsi iki ildən sonra baş tutdu.(o dövrdə Müdafiə Şurası Moskva tərəfindən təsdiq olunurdu.) 1986-cı ildə "Azərbaycan ədəbi dilində termin-söz birləşmələri" mövzusunda namizədlik dissertasiyası müdafiə etmiş, opponentləri Zərifə Budaqova və Aleksandr Baskakov tədqiqatı yüksək qiymətləndirmişdir. Sonrakı illərdə də terminologiya, leksikologiya, dil tarixi, dil nəzəriyyəsi və dil əlaqələri ilə bağlı araşdırmalarını davam etdirmiş, sanballı məruzələrlə müxtəlif elmi konfranslarda çıxış etmişdir. Terminologiya və onun müxtəlif nəzəri problemlərinə həsr edilən məqalələri elmi jurnallarda və toplularda dərc olunmuşdur. 1994-cü ildə S.A.Sadıqova bu sahədəki fəaliyyətini davam etdirmək məqsədi ilə ən gənc kadr kimi sənədlərini əyani doktoranturaya verdi və 1994-1997-ci illərdə Nəsimi adına Dilçilik İnstitutunda doktorluq üzrə doktoranturaya qəbul oldu. Bu illərdə apardığı tədqiqatların nəticəsi olaraq 1997-ci ildə doktorluq işi müzakirə olunaraq müdafiəyə buraxılmışdır. Akademik Ağamusa Axundov müzakirə zamanı bu tədqiqat işini mühüm hadisə kimi yüksək qiymətləndirmişdir. 1999-cu ildə "Azərbaycan dilində fizika-riyaziyyat terminologiyasının formalaşması və inkişafı" mövzusunda doktorluq dissertasiyasını uğurla müdafiə etmişdir. Fizika-riyaziyyat terminlərinin inkişaf tarixi, yaranma mənbələri, üsulları, beynəlxalq riyazi terminlər, onların terminoloji lüğətlərdə verilməsi qaydaları tədqiq edilmişdir.

2000-ci ildən vaxtilə kiçik elmi işçi, böyük elmi işçi işlədiyi Azərbaycan Milli Elmlər Akademiyasının Nəsimi adına Dilçilik İnstitutunda Terminologiya şöbəsinin müdiri vəzifəsinə qədər yüksəlmişdir. Əmək fəaliyyətinə başladığı bu İnstitutda pillə-pillə öz zəhməti ilə seçilən ziyalımız 2001-ci ildən AMEA Rəyasət Heyəti yanında Terminologiya Komissiyasının sədr müavini və məsul katibi təyin olundu. Bu illərdə Azərbaycan dilinin sabit terminologiyasının yaradılmasını qaydaya salmaq, bu sahədəki vəziyyəti nizama salmaq, respublikanın elmi-tədqiqat müəssisələrində və ali məktəblərdə aparılan terminoloji işlərə rəhbərlik etməklə dilin qorunmasına və inkişafına xidmət edir.

2012-ci ildə Terminologiya Komissiyası haqqında "Əsasnamə" təsdiq edilmiş, elmin, texnikanın, iqtisadiyyat və mədəniyyətin ayrı-ayrı sahələri üzrə terminologiya yaradılması üçün konkret elmi prinsiplər müəyyənləşdirilmiş, terminoloji lüğətlərin tərtibi metodikası işlənilmişdir. Bu prinsiplərin tətbiqi onun rəhbərliyi ilə həyata keçirilərək Terminologiya Komissiyasının qərarı ilə 140-a qədər terminoloji lüğət nəşr olunmuşdur. 2002-ci ildən Terminologiya Komissiyasının xətti ilə nəşr olunan, terminologiyanın nəzəri və praktik məsələlərini özündə əks etdirən "Terminologiya məsələləri" toplusunun redaktorudur. İkidilli və çoxdilli (izahlı) terminoloji lüğətlərin tərtibində, elmi dilin təkmilləşdirilməsi istiqamətində fəa-

liyyət göstərir, terminologiya sahəsində respublika səviyyəsində dəfələrlə keçirilən elmi konfransların təşəbbüsçüsü və təşkilatçısıdır.

Terminologiyanın dilçiliyin müstəqil bir sahəsi kimi tədqiqində və inkişafında, nəzəri problemlərinin araşdırılmasında S.A. Sadıqovanın mühüm xidmətləri vardır. Müəllifin "Azərbaycan dilində fizika-riyaziyyat terminologiyasının formalaşması və inkişafı" (Bakı,"Elm",1997),"Azərbaycan dili terminologiyasının nəzəri problemləri" (B., "Elm", 2002), "Azərbaycan dilində terminologiyanın təşəkkülü və inkişafı" (Bakı, "Elm",2005),"Терминологические словосочетания в Азербайджанском литературном языке" (Б., "Елм", 2007), "Müasir Azərbaycan ədəbi dilində termin yaradıcılığı prosesi" (Bakı, "Elm", 2010), "Azərbaycan dilinin terminologiyası "(Bakı, "Elm" , 2011), " Dilciliyin nəzəri problemləri"(Bakı, "Elm", 2010-Ic; 2011-IIc; 2012-IIIc;),"Azərbaycan dilində terminologiyanın standartlaşdırma formaları", (Bakı, "Elm", 2015), "Müstəqillik illərində terminologiyanın inkişafı" (Bakı, "Elm", 2016)" "Azərbaycan Xalq Cümhuriyyəti və milli ədəbi dilin inkişaf tarixi" (1918-2018) əsərləri dilçilik elminə qiymətli töhfədir. S.A.Sadıqova dil tarixi, terminologiya, orfoqrafiya, nitq mədəniyyəti və dilçiliyin başqa sahələrinin nəzəri problemlərinə dair 26 monoqrafiyanın, 340-dan artıq elmi məqalənin müəllifidir. Elmin müxtəlif sahələri ilə bağlı Terminologiya Komissiyasının xətti ilə nəşr olunan

50-dən artıq terminoloji lüğətin redaktoru və ön sözünün müəllifidir.  Elmi fəaliyyətində nəzəri və tətbiqi məsələləri bir vəhdət halında götürən tədqiqatçı nəzəri əsərlərlə yanaşı "İzahlı fizika –riyaziyyat terminləri lüğəti" (Bakı, "Elm", 1998), "İzahlı yeni terminlər lüğəti" (iki cild, Bakı, "Elm", 2016 , 2018, 248 səh.),"Azərbaycan dilində şəxs adlarının izahlı lüğəti"(Bakı, "Elm", 2016, 233 səh.)  "İzahlı dilçilik terminləri lüğəti" (Bakı, Elm, 2018, 912 səh., həmmüəllif), "İzahlı dilçilik terminləri lüğəti" (Bakı, Elm, 2019, 1200 səh.), kimi bir sıra lüğətlərin tərtibçisidir. Onun tərtib etdiyi "Azərbaycan dilində şəxs adlarının izahlı lüğəti" Respublikamızda fəaliyyət göstərən qeydiyyat idarələrində yeni doğulan körpələrə adların qoyulmasında əsas vəsaitdir. Dilçilik sahəsindəki uğurları respublikamızın hüdudlarından kənarda da nüfuz qazanmışdır. S.Sadıqova Respublikamızda elmi konfranslarda, eləcə də Moskva, Ufa, Daşkənd, Aşqabad, Alma-Ata, Tehran, Ankara və İstanbul şəhərlərində keçirilmiş elmi konfranslarda və simpoziumlarda maraqlı məruzələrlə çıxış etmişdir. Onun əsərləri Rusiya, Qazaxıstan, Türkiyə və İranda nəşr olunmuşdur. S.Sadıqova uzun müddət Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının Ekspert Şurasının üzvü olmuş,  hazırda Respublika Elmi Tədqiqatların Təşkili və Əlaqələndirmə Şurasının,  Azərbaycan Milli Elmlər Akademiyası nəzdində Dilçilik üzrə Müdafiə Şurasının sədr müavini və Dilçilik İnsti-

tutunda Elmi seminarın sədridir. Yüksəkixtisaslı kadrların yetişdirilməsində də uğurlu fəaliyyət göstərmişdir. S.Sadıqovanın rəhbərliyi ilə dilçiliyin müxtəlif problemləri ilə bağlı 14 filologiya üzrə fəlsəfə doktoru, o cümlədən 2 filologiya üzrə elmlər doktoru alimlik dərəcəsi almışdır. 2008-ci ildə AAK tərəfindən ixtisas üzrə professor adı verilmişdir.

Terminologiya sahəsindəki elmi tədqiqatları respublikamızın hüdudlarından kənarda da nüfuz qazanmışdır. Terminologiya Komissiyasının xətti ilə Azərbaycan dilinin təkcə respublikada deyil, respublikadan kənarda qorunması istiqamətində də mühüm işlər aparır. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının dəvəti ilə İstanbul şəhərində 16 noyabr 2012-ci il tarixində ilk iclasında iştirak etmiş, Türk dillərinin vahid terminologiyasının yaradılması sahəsində Ekspertlər Komitəsinin və Ortak Terminoloji Kurulun üzvü seçilmişdir. Türk dillərinin ortaq əlifbasının qəbul edilməsi və prinsiplərinin hazırlanmasında iştirak etmişdir. 5 sentyabr 2013-cü ildə Türki kenesi Terminologiya Komitəsinin təşkilatçılığı ilə Qazaxıstanda yaranan Türki Akademiyasında Türk dillərinin Terminologiya məsələləri – termin yaradıcılığı prosesi ilə bağlı toplantıda iştirak etmişdir. Toplantıda Türkdilli respublikalarda terminologiyanın müasir vəziyyəti, gələcək inkişafı müzakirə olunmuşdur. Türk dillərinin ortaq terminologiyasının yaradılmasının əsas problem kimi geniş şəkildə müzakirə olunmuş təşkilat

Komitəsində iştirak etmiş və Türki kenesi Terminologiya Komitəsinin üzvü seçilmişdir. 2017-ci ildən Azərbaycan Respublikasının Prezidenti İ.Əliyevin sərəncamı ilə yaradılan Dil Komissiyasının üzvüdür.

Dilçiliyin ən mühüm problemlərinə - terminologiya, leksikologiya, dil tarixi, onomastikaya aid əsərləri, Dövlət dilinə aid mətbuat səhifələrində tez-tez dərc olunan silsilə məqalələri, Kütləvi İnformasiya vasitələrində çıxışları respublikamızın elmi ictimaiyyəti tərəfindən maraqla qarşılanır. Azərbaycan dilçilik elminin inkişafındakı xidmətlərinə görə professor S.A.Sadıqova 12 dekabr 2005-ci ildə AMEA-nın 60 illiyi və 29 oktyabr 2010-cu ildə anadan olmasının 50 illiyi ilə əlaqədar Azərbaycan Milli Elmlər Akademiyasının Fəxri Fərman ilə, elmi və təşkilati fəaliyyəti yüksək qiymətləndirilərək 2015-ci ildə Azərbaycan Respublikasının Prezidentinin sərəncamı ilə “Tərəqqi medalı” ilə təltif edilmişdir. S.A.Sadıqova 2017-ci ildə AMEA Nəsimi adına Dilçilik İnstitutunun Elmi Şurasının qərarı ilə “İlin alimi”, Azərbaycan Kütləvi İnformasiya Şurası tərəfindən Azərbaycan dilinin qorunmasının təmin edilməsindəki fəaliyyətinə, Vətənə və xalqa layiqli xidmətlərinə görə “İlin nüfuzlu ziyalısı” ali media mükafatına, 2018-ci ildə yaradıcılıq fəaliyyətinə görə KİV və Həmkarlar İttifaqı Rəyasət Heyətinin qərarı ilə “Qızıl qələm” media mükafatına layiq görülmüşdür. Filologiya elmləri doktoru, professor Sayalı Sadıqova dilçiliyin müxtəlif sahələrinə həsr

edilmiş coxşaxəli yaradıcılığı ilə Azərbaycan dilinin qorunması və inkişafında mühüm xidmətləri olan ziyalılarımızdandır.

***Mübariz Yusifov***
***Gəncə Dövlət Universiteti,***
***filologiya elmləri doktoru, professor***

## GÖRKƏMLİ DİLÇİ ALİM

Dili canından çox sevən, yorulmadan onun problemlərindən yazan filologiya ilə bağlı zəngin tədqiqatları, araşdırmaları ilə dilimizin sehirli dünyasını yaşadanlar... Dilimizin sehrli dünyasına baş vurmaq, xalqımızın söz sərvətinin incəliklərini duyaraq qələmə almaq hər kəsə nəsib olmur. Bunu duyanlar əbədi yaşarlıq qazanır. Sayalı xanımın yaradıcılığı da beləcə o səda, o harayla başlanır. Dilimizin sehrli dünyasını, xalqımızın söz sərvətinin incəliklərini aramağa, araşdırmağa çağırır bu səda onu. Axtardıqca dilimizin zənginliyi, məna dərinliyi heyrətdə qoyur onu. Beləcə xalqımızın mənəvi varlığını, dərkedilməz dərəcədə geniş olan Azərbaycan mənəviyyat ümmanının dərinliklərini, tarixinin zənginliyini araşdırmağa başlayır. Onun Azərbaycan dilinin aktual problemlərinə həsr olunmuş tədqiqatları öz orijinallığı, elmi səviyyəsi ilə seçilir, axtarışları bəhrəsini verir. Beləcə başladı ömür yolu Sayalı xanımın ...

Əsl ziyalıya xas olan yüksək intellekt səviyyəsi ilə seçilən görkəmli alim, filologiya elmləri doktoru, professor Sayalı Sadıqova 1960-cı ildə gözəl təbiəti, ürəkaçan mənzərəsi ilə seçilən qədim oğuz yurdu Göyçə mahalının Cil kəndində anadan olmuş və orta təhsilini də orada bitirmişdir. 1977-ci ildə APİ-nin (M.Tusi adına ADPU) filologiya fakültəsinə qəbul olmuş və ali təhsilini 1981-ci ildə fərqlənmə diplomu ilə

başa vurmuşdur. Elmi axtarışlara olan böyük həvəs onu rahat buraxmırdı. İnstitutu bitirən ili (1981-ci ildə) Elmi Şuranın qərarı ilə AMEA Nəsimi adına Dilçilik İnstitutunda aspiranturaya sənədlərini vermiş və qəbul olmuşdur. Elmi fəaliyyətinə 1984-cü ildə AMEA Nəsimi adına Dilçilik İnstitutunda kiçik elmi işçi vəzifəsi ilə başlamış, İnstitutun Gənc Alimlər Şurasının ən fəal üzvlərindən biri kimi elmi məruzələri ilə alimlərin diqqətini cəlb etmişdir. 1986-cı ildə 26 yaşında "Azərbaycan ədəbi dilində termin-söz birləşmələri" mövzusunda namizədlik dissertasiyası müdafiə etmiş və A.Baskakovun opponentlik rəyində dissertasiya yüksək qiymətləndirilmişdir. Sonrakı illərdə də dilçiliyin müxtəlif sahələrinə, xüsusilə, terminologiya, leksikologiya, dil tarixi, dil nəzəriyyəsi və dil əlaqələri ilə bağlı araşdırmalarını davam etdirmiş, sanballı məruzələrlə müxtəlif elmi konfranslarda çıxış etmişdir. Terminologiya və onun müxtəlif nəzəri problemlərinə həsr edilən məqalələri elmi jurnallarda və toplularda dərc olunmuşdur. S.A.Sadıqova bu sahədəki fəaliyyətini davam etdirmək məqsədi ilə 1994-1997-ci illərdə Nəsimi adına Dilçilik İnstitutunda doktoranturaya qəbul olmuşdur. 1997-ci ildə doktorluq işi 37 yaşında müzakirə olunaraq müdafiəyə buraxılmışdır. 1999-cu ildə apardığı səmərəli axtarışların nəticəsi olaraq "Azərbaycan dilində fizika-riyaziyyat terminologiyasının formalaşması və inkişafı" mövzusunda doktorluq dissertasiyasını uğurla müdafiə et-

mişdir. Fizika-riyaziyyat terminlərinin inkişaf tarixi, yaranma mənbələri, üsulları, beynəlxalq terminlər, onların terminoloji lüğətlərdə verilməsi qaydaları tədqiq edilmişdir. Həmin sahə ilə bağlı "İzahlı fizika –riyaziyyat terminləri lüğəti" (Bakı, Elm, 1998) nəşr olunmuşdur.

2000-ci ildən Azərbaycan Milli Elmlər Akademiyasının Nəsimi adına Dilçilik İnstitutunda Terminologiya şöbəsinin müdiridir. 2001-ci ildən AMEA Rəyasət Heyəti yanında Terminologiya Komissiyasının sədr müavini və məsul katibidir. Bu illərdə Terminologiya Komissiyasının qərarı ilə 140-a qədər terminoloji lüğət nəşr olunmuşdur. 2002-ci ildən AMEA RH yanında Terminologiya Komissiyasının xətti ilə nəşr olunan "Terminologiya məsələləri" toplusunun redaktorudur.

40 ilə yaxındır ki, ana dilini qorunması, inkişaf etdirilməsi istiqamətində mühüm işlər aparır, dilçiliyin aktual problemlərinə dair 26 monoqrafiya və kitabın, 300-dən artıq məqalənin müəllifidir. Təcrübə və nəzəriyyəni professionallıqla birləşdirməyi, vəhdət halına götürməyi bacaran S. Sadıqovanın yaradıcılığı məzmun və forma baxımından zəngin, çoxşaxəlidir. O, Azərbaycan dilinin terminologiyası , ədəbi dil və üslub, tarixi leksikologiyanın problemləri ilə bağlı tədqiqatlar aparır.

Azərbaycan dilində terminlərin spesifik xüsusiyyətlərini, onların mahiyyətini, sistemini, mənşəyini,

inkişaf tarixini, yayılma regionunu, bir dildən başqa bir dilə transliterasiya problemlərinin öyrənilməsi terminologiyanın əsas problemlərindəndir. Müəllifin tədqiqatının əsas hissəsini terminologiyanın bu aktual problemlər təşkil edir. Onun həm namizədlik, həm də doktorluq dissertasiyası Azərbaycan dilində terminologiyanın formalaşması, inkişafı və termin yaradıcılığının istiqamətlərinə həsr olunmuşdur. 40 ildir ki, terminologiyanın aktual problemlərinin həlli istiqamətində mühüm işlər aparır. Müəllifin qeyd etdiyi kimi, hər bir terminoloji vahid xalqımızın qədim mənəviyyatını əks etdirən canlı tarixi əsərdir. Terminlər onu yaradan və yaşadan xalqın tarixini qoruyub saxlayan dil və mədəniyyət faktlarıdır. Azərbaycan dilində termin yaradıcılığı prosesinin istiqamətləri ilk dəfə sistemli şəkildə onun yaradıcılığında araşdırılmışdır. S.Sadıqovanın coxşaxəli yaradıcılığının mühüm bir hissəsini antroponimlər təşkil edir. Alimin yaradıcılığında onomastikanın tədqiqat obyekti kimi antroponimlərin leksik-semantik və qrammatik xüsusiyyətləri təhlil edilmişdir. İnsan adları tarixi kateqoriyadır və cəmiyyətin inkişafında əvəzsiz rol oynayır. Tədqiqatlarında əsas diqqətini antroponimikanın nəzəriyyə və praktika məsələlərinin təhlilinə yönəltmişdir. Müəllif yazır ki, adlar qoyularkən nəzərə almaq lazımdır ki, oğlan adlarında igidlik, məharət, güclülük, hakimlik; qız adlarında gözəllik, incəlik, mənəvi təmizlik motivləri üstünlük təşkil etsin. Buna görə də “Azərbaycan dilində

şəxs adlarının izahlı lüğəti”ndə adlar iki qrup altında verilmişdir: qadın adları; kişi adları; Bu qrupların hər biri müəyyən prinsip və tələblərə müvafiq olaraq reallaşıb dildə işlənir. Lüğətdə Azərbaycan dilinin adlar sistemində işlənən 6 minə yaxın ad toplanmış və onların izahı verilmişdir. Bununla yanaşı ön sözdə adların yaranma prinsipləri müəyyənləşdirilərək yazılır ki, Azərbaycan dilində adlar sistemi daima inkişafdadır. Yeni adların verilməsi şəxs adları sistemini zənginləşdirir. Müasir dövrdə körpələrə verilən adlar seçilir, təhlil edilir. Adların qoyulması ictimai bir hadisə hesab edilir, çünki hər bir ad xalqın milli mənəvi dəyərini özündə əks etdirir. Uşağa ad seçmək sərbəstdir. Lakin sərbəstlik qayda-qanunlar əsasında həyata keçirilir. Adseçmə xalqın müasir mədəni tələblərinə və Azərbaycan ədəbi dilinin yazı qaydalarına uyğun olmalıdır. Adların düzgün yazılışı məsələləri, bu qrup sözlərin özünəməxsus cəhətləri, mövcud ümumi orfoqrafik prinsiplərin burada tətbiqi təyin edilir. Belə ki, şəxs adlarının yazılışının ümumi orfoqrafiya qaydaları ilə bağlılığı, bununla bərabər şəxs adlarının özünəməxsus yazılış qaydaları da müəyyənləşdirilir. Bu baxımdan lüğət hər bir vətəndaşa adlar seçməkdə, mənasını öyrənməkdə köməkçidir, onların ehtiyacını ödəməkdə faydalı örnəkdir. Azərbaycan dilində şəxs adlarının izahlı lüğəti”(Bakı, Elm, 2016, 233 səh.) Respublikamızda fəaliyyət göstərən qeydiyyat idarələrində yeni doğulan körpələrə adların qoyulmasında

əsas mənbədir. Əsərləri ilə tanışlıq sübut edir ki, dilimizin, mənəviyyatımızın dünəni, bu günü, ədəbi prosesi, yazıçı dili, milli dilimizin inkişaf tarixi, təşəkkülü onu düşündürən başlıca problemlərdəndir. Tədqiqatlarında dilçiliyin aktual problemlərinin araşdırılmasına üstünlük verən tədqiqatçı tariximizi saxtalaşdıran alimlərə cavab olaraq, faktlara əsaslanaraq dilimizin inkişaf yolları, istiqamətləri müəyyənləşdirilir. Dilimizin tarixi, milli dil, ədəbi dilin üslub və normaları, filologiyamızın dünəni və bu günü, ana dilinin saflığının qorunması onun başlıca tədqiqat obyektləridir. O, dilin aktual problemləri ilə bağlı daha ardıcıl məşğul olmuş, dövrü mətbuatda silsilə məqalələr nəşr etdirmişdir. Mətbuat dili, mütəfəkkirlərimizin elmi dili onun yaradıcılığında təhlil edilmişdir. Elmi axtarışlarını inadkarlıqla, əsl sənət yanğısı ilə davam etdirən Sayalı xanımın elmi uğurları ilə tanış olanda zəhmətkeşliyinə, məhsuldar fəaliyyətinə, istedadına qibtə edilir. Alim təkcə Azərbaycanda deyil, vətənimizin hüdudlarından uzaqlarda da - Ufa, Daşkənd, Aşqabad, Tehran, İstanbul və b. şəhərlərdə keçirilmiş simpozium və elmi konfranslarda problem mahiyyətli maraqlı məruzələrlə çıxış etmişdir. Tədqiqatçı tarixi leksikologiya, leksikoqrafiya sahələri üzrə aktual problemlərin araşdırılmasında da həm problem rəhbəri kimi, həm də əsas tədqiqatçılardan biri kimi fəaliyyət göstərmişdir. Məhsuldar elmi fəaliyyəti ilə yanaşı, görkəmli alimin yüksək ixtisaslı kadrların yetişdirilməsində də

mühüm xidmətləri var. Onun rəhbərliyi altında 16-dan artıq namizədlik və doktorluq dissertasiyası müdafiə olunmuşdur. O, uzun müddətdir ki, Nəsimi adına Dilçilik İnstitutunun İxtisaslaşdırılmış Müdafiə Şurasının üzvü kimi fəaliyyət göstərir, (onlarla dissertasiya işinə rəyçi və rəsmi opponent təyin olunmuş) gənc dilçilərə bilik və təcrübəsini müdrikliklə öyrədir, onlara bu elmin sirlərinə bələd olmaqda əlindən gələni əsirgəmir. Ancaq elmi yaradıcılıq onu ilk gənclik illərindən vurğunu olduğu pedaqoji işdən ayıra bilməmişdir. Çoxcəhətli fəaliyyətində onun elmi-pedaqoji fəaliyyəti mühüm yer tutur. Sayalı xanım ali məktəbi qurtarandan yaradıcılıqla yanaşı, pedaqoji fəaliyyətini də davam etdirmiş, leksikologiya, üslubiyyat, nitq mədəniyyətindən, Azərbaycan dilinin qrammatikasından mühazirələr oxumuşdur. O, uzun illərdir ki, terminologiya və nitqin elmi üslubundan mühazirələr aparır, mənəvi varlığımızın ayrılmaz tərkib hissəsi olan dilimizin qorunması, saflığı sahəsində yorulmadan çalışır. Elmi fəaliyyəti ilə dilçiliyin tətbiqi sahəsini bir vəhdət halında götürən tədqiqatçı nəzəri əsərlərlə bərabər elmin müxtəlif sahələri ilə bağlı nəşr olunan 50-dən artıq terminoloji lüğətin redaktorudur. Dövrü mətbuatda Azərbaycan dilinin tətbiqi məsələləri, aparılan dil siyasəti, dilçiliyin əsas problemləri ilə bağlı məqalələri dərc olunur. Elmi yaradıcılığının mühüm bir qismini nəşr olunan əsərlərə resenziyalar, publisistika təşkil edir. Sayalı Sadıqova elmi fəaliyyətini tədris-pedaqoji

işlə-müəllimliklə vəhdətlə davam etdirən, filoloji fikrin yeni nailiyyətlərini auditoriyalarda tələbələrə çatdıran əsl müəllim, ziyalı və tədqiqatçıdır. O, Azərbaycan dilinin yalnız tədqiqatçısı deyil, həm də təbliğatçısıdır. Əsas ünsiyyət vasitəsi kimi ana dilinin bütün incəliklərini duymaq, sevdirmək – bu işi gələcək nəsillərə çatdırmaq… Onun alim-pedaqoq amalıdır. Başlıca məqsədi xalqına, elminə xidmət etməkdir.

S. Sadıqova elmi və ictimai-pedaqoji fəaliyyətini göz önünə gətirib arxada qalan illərə baxanda şərəflə yaşanmış mənalı bir ömür görünür. Onlarca monoqrafiya və kitab, yüzlərcə məqalə, minlərcə tələbə ali təhsilli Azərbaycan dili və ədəbiyyatı müəllimi – bu ömrün silinməz səhifələridir. Görkəmli alim təbiətcə nikbin, xaraktercə tələbkar, sonsuz həyat sevincləri ilə yaşayan, elmi fəaliyyətdən əl çəkməyən, son dərəcə həssas, qayğıkeş bir insan, gənclərin yaxın dostu, məsləhətçisidir. O, həmçinin çox mehriban, qayğıkeş, xoşxasiyyət, ailəsinə qəlbən bağlı bir insandır. Yetirdiyi övladları onun şərəfli yolunu ləyaqətlə davam etdirir. Elmi seminarlarda, müdafiələrdə gənc tədqiqatçılara göstərdiyi qayğı, verdiyi xeyirxah məsləhətlər onun müdrikliyindən irəli gəlir. Onları xatırladıqca, tələbələrinin bir çoxunun yanında, onun yolunu davam etdirən gördükcə, onlarla çiyin-çiyinə çalışdıqca ürəyi sevinc, şərəf, iftixar duyğuları ilə yaşayan, gənclik ehtirası, gənclik gücü ilə fəaliyyət göstərən Sayalı xanım bu gün də öz fəaliyyətini uğurla davam etdirir.

Onun doğma dilimizə sözlə ifadə edilməyən, sərhəd-ləri bilinməyən bu məhəbbəti gənc dilçilər üçün bir örnəkdir. Xalqa olan məhəbbətin təntənəsini ifadə edən bu səmərəli elmi yaradıcılıqdan hələ neçə-neçə nəsil bəhrələnəcəkdir.

***Buludxan Xəlilov***
***Azərbaycan Dövlət Pedaqoji Universitetinin***
***Müasir Azərbaycan dili kafedrasının müdiri,***
***filologiya elmləri doktoru, professor***

## ELM NAMİNƏ YAŞANAN İLLƏR

Elm və sənət adamı ömrünün hər bir çağında: gəncliyində, cavanlığında, yetkinlik illərində, ixtiyarlıq zirvəsində öz ovqatı, təfəkkür, düşüncə səviyyəsi, qabiliyyəti, elmi-bədii potensialı və istedadı ilə düşündüklərini, onu narahat edən müşkülləri, mətləbləri yazıb-yaratdığı əsərləri ilə çatdırır. İmkan və gerçəklik həqiqətinə sadiq qalmaqla o, qələmindən çıxan hər bir yazısında özünü təsdiq və təqdim edə bilir. 60 yaşın zirvəsinə yüksəlmiş alim-qadın AMEA Nəsimi adına Dilçilik İnstitutunun Terminologiya şöbəsinin müdiri, filologiya elmləri doktoru, professor Sayalı Allahverdi qızı Sadıqova elmimizdə və ictimai mühitdə özünü təsdiq edən ziyalılarımızdandır. Sayalı Sadıqova 1960-cı ildə iyunun 22-də bu gün erməni qəsbkarlarının işğalı altında olan qədim oğuz türklərinin yurdu Göyçə mahalının Çənmərək bölgəsinin Cil kəndində (əvvəllər bu oba Basarkeçər bölgəsinin ərazisi olub) ziyalı ailəsində -müəllim ailəsində doğulmuşdur. 1976-cı ildə Cil kənd orta məktəbini bitirib elə həmin ildə də Azərbaycan Pedaqoji İnstitutunun (indiki Azərbaycan Dövlət Pedaqoji Universiteti) filologiya fakültəsinə imtahanları uğurla verərək tələbə adını qazanmışdır. Həmin ali məktəbi 1981-ci ildə fərqlənmə diplomu ilə başa vurmuşdur. Sayalı xanım Universitetin Elmi Şurasının qərarı ilə aspiranturaya daxil olmaq hüququ qazanmış, bu dəfə də aspirantura imtahanları-

nı müvəffəqiyyətlə verib “Müasir Azərbaycan dili” ixtisası üzrə AMEA Nəsimi adına Dilçilik İnstitutunun aspirantı olmuşdur. S.Sadıqova 1986-cı ildə “Azərbaycan ədəbi dilində termin söz birləşmələri” mövzusunda prof. Məmməd Qasımovun elmi rəhbərliyi ilə namizədlik dissertasiyası müdafiə etmişdir. Onun rəsmi opponentləri AMEA-nın müxbir üzvü, mərhum prof. Zərifə Budaqova və tanınmış türkoloq prof.Aleksandr Baskakov idi. 1981-ci ildən Nəsimi adına Dilçilik İnstitutunda fəaliyyətə başlamış, əvvəlcə kiçik elmi işçi, sonra böyük elmi işçi vəzifələrində çalışmışdır. 1992-ci ildə terminologiya şöbəsi lüğətçilik şöbəsi ilə birləşdikdən sonra 2000-ci ilədək bu şöbədə işləmiş, doktorant olmuşdur. 1997- ci ildə doktoranturanı bitirməmişdən əvvəl doktorluq işi müzakirə olunaraq müdafiəyə buraxılmışdır. 1999-cu ildə “Azərbaycan dilində fizika-riyaziyyat terminologiyasının formalaşması və inkişafı” mövzusunda doktorluq dissertasiyası müdafiə edərək 39 yaşında elmlər doktoru alimlik dərəcəsinə layiq görülmüşdür. Dilçilik İnstitutunda struktur dəyişmələri aparılaraq yenidən terminologiya şöbəsi bərpa olundu, İnstitutunun direktoru akad. Ağamusa Axundov Sayalı Sadıqovanı bu şöbənin müdiri vəzifəsinə layiq gördü. Zaman göstərdi ki, Ağamusa müəllimin təyinatı çox uğurlu çıxdı. Sayalı xanım tezliklə AMEA Terminologiya Komissiyasının sədr müavini təyin edildi, “Terminologiya məsələləri” toplusu əvvəllər fasilələrlə (əvvəllər cəmi

üç toplu nəşr olunmuşdur) nəşr olunurdusa, onun rəhbərliyi ilə iyirmi ildir ki, müntəzəm olaraq çap olunur. 2008-ci ildə professor elmi adına layiq görülmüşdür. Bir müddət Dilçilik İnstitutu nəzdindəki Dissertasiya Şurasının və AAK-ın filologiya elmləri üzrə ekspert şurasının üzvlüyünə məsləhət görülmüşdür.

S.Sadıqovanın 26 yaşında müdafiə etməsi və AMEA Nəsimi adına Dilçilik İnstitutunda sağlam və yüksək səviyyəli bir elmi mühitə düşməsi, vaxtilə akad. Məmmədağa Şirəliyev, müxbir üzv Əliheydər Orucov, müxbir üzv Zərifə Budaqova, prof.Məmməd Qasımov, prof.Musa İslamov, prof.Müseyib Məmmədov akad.Ağamusa Axundov, prof.Rəhilə Məhərrəmova, prof.Qəzənfər Kazımov, prof.Q.Məşədiyev və başqa görkəmli alimlərlə çiyin-çiyinə işləməsi onu peşəkar bir elm adamı kimi formalaşdırmış, aspirantlıqdan professorluğa, şöbə müdirliyinə qədər yüksəltmişdir. Onunla birgə eyni şöbədə işlədiyim 8 il müddətində özünü təşəbbüskar, həmişə yeniliyə can atan, öyrənən, elmə sonsuz bir marağı olan zəhmətkeş gənc kimi göstərmişdir.

Hər hansı bir şəxsin bəyənilən keyfiyyətlərindən söz düşəndə deyirlər: filankəs xeyirxah adamdır, ünsiyyət yaratmağı bacarandır, diqqətlidir, tələbkarlıq, səmimidir, ciddiyyət lazım olan anlarda ölçünü gözləyəndir, güzəşti sevmir, fəal vətəndaşlıq mövqeyini saxlayır. Alim barəsində də belə söyləyirlər: elmdə obyektivdir, qərəzsizdir, sağlam mübahisə və tənqidin

tərəfdarıdır, elmini yetirmələrinə təmənnasız öyrədir, öz səviyyəsi və səmimiyyəti ilə, mənəvi keyfiyyətləri və mədəniyyəti ilə, cəmiyyətdə və işdə öz mövqeyini gözləməsi və qoruyub saxlaması ilə həmkarlarına nümunədir. Bax saydığımız bu cəhətlərin hamısı Sayalı Sadıqovanın şəxsiyyətində cəmlənmişdir. Ümumiyyətlə, yaxşı insanlara xas olan keyfiyyətlərin əksəriyyəti Sayalı Sadıqovanın xarakterini tamamlayır. Bütün bunlar onun qibtə olunacaq bir ailənin övladı, müdrik bir müəllim, el ağsaqqalı atası Allahverdi müəllimin layiqli bir varisi olmasından xəbər verir. Özündən başqa onun 2 qardaşı – Misirəddin Sadıqov və Xalıqverdi Sadıqov fizika-riyaziyyat elmləri doktorudur. Özündən kiçik qardaşı, orta məktəbi qızıl medalla başa vurub, BDU-nun Mexanika-riyaziyyat fakültəsini bitirib, AMEA-nın aspirantı olan Yusif isə min heyiflər olsun ki, 1990-cı ildə qanlı 20 yanvarda şəhid oldu. Əgər namərd düşmənin gülləsinə tuş olmasaydı, o da bu gün ölkəmizin say seçmə riyaziyyatçı alimlərindən biri olacaqdı (22 yaşlı aspirant idi). Onun əziz xatirəsi, bir cəsur və mərd, yenilməz, igid vətən övladı kimi hər zaman qəlbimizdə yaşamaqdadır.

Sayalı xanımın dilçilik fəaliyyətinin miqyası geniş olsa da, müxtəlif beynəlxalq, ölkə konfrans və simpoziumlarının iştirakçısı olsa da, onun əsas araşdırmaları ana dilimizin terminologiyasının nəzəri və əməli məsələlərinə həsr olunmuşdur. “Azərbaycan dilində fizi-

ka-riyaziyyat terminologiyasının formalaşması və inkişafı”, “Azərbaycan dili terminologiyasının nəzəri problemləri”, “Azərbaycan dilində terminologiyanın təşəkkülü və inkişafı”, “Müasir Azərbaycan ədəbi dilində termin yaradıcılığı prosesi”, “Терминологические словосочетания в азербайджанском литературном языке” monoqrafiyaları və ümumiyyətlə, 300-dən artıq elmi məqalə onun qələminin məhsuludur. Bundan başqa AMEA Terminologiya Komissiyası xətti ilə çıxan 50-dən artıq terminoloji lüğətin də redaktorudur.

Bir həqiqət gün kimi aydındır ki, elmi araşdırmalar o zaman daha uzunömürlü, dəyərli olur ki, həll olunmalı problemə bütün dərinliyi ilə, sistemli şəkildə yanaşılmış olsun, mövzunun mahiyyəti tamamilə açıqlansın. Həm də tədqiqat sözün tam mənasında başa çatdırıla bilsin. Terminologiya sahəsi də nə qədər öyrənilmiş olsa da, hələ də birmənalı şəkildə tədqiq olunub qurtarıb demək düzgün olmazdı. Doğrudur, prof. Məmməd Qasımov “Azərbaycan dili terminologiyasının əsasları” monoqrafiyasında, habelə başqa araşdırmalarında bu sahə ilə bağlı faydalı işlər görmüş, dilçiliyin əsrimizdə həmişə aktuallığı ilə fərqlənən sahəsinin elmimizdə perspektivlərini qeyd etmişdir. Onun istedadlı və inadkar davamçısı prof. Sayalı Sadıqova isə sonrakı çağdaş nəslin nümayəndəsi kimi hələ ilk elmi araşdırmalardan Azərbaycan dili terminologiyasına yeni baxışdan, orijinal mövqedən yanaş-

mış, elə namizədlik dissertasiyasında terminlərin seçilib müəyyənləşdirilməsini novatorcasına həll etmişdir. Səmərəli müşahidələrinə əsaslanaraq o, terminlərin yalnız sözlərdən-isimlərdən ibarət olması fikri ilə qənaətlənməmiş, termin söz birləşmələri anlayışı fikrini inkişaf etdirmiş, isimlərlə yanaşı bütün nitq hissələrinin də terminyaratmada iştirakı mülahizəsinə söykənmişdir. Alimin sonrakı araşdırma və monoqrafiyaları da öz yenilikçilik ruhu ilə, nəzəri ümumiləşdirmə səviyyəsi ilə diqqəti cəlb edir. S.Sadıqova terminyaratma işinə canlı bir dil prosesi kimi yanaşır, elm sahələrinin formalaşmasında terminologiyanın baza təşkil etməsini, onu elmi dilin zənginləşməsində və inkişafında mühüm qaynaqlardan hesab etməsi obyektiv qənaət kimi qəbul olunur. Yeri gəlmişkən deyək ki, əvvəlki terminoloji araşdırmalar bir növ ümumi səciyyə daşıyırdısa, kifayət qədər tədqiqatlara əsaslanmırdısa, artıq son illər prof.Sayalı Sadıqovanın yanaşmasında, habelə onun yetirmələrinin tədqiqatlarında konkret mövzular vasitəsilə bu problemlər öz dərinliyi ilə açıqlanmış oldu. S.Sadıqovanın "Azərbaycan dilində terminologiyanın təşəkklülü və inkişafı", “Azərbaycan dili terminologiyasının nəzəri problemləri” monoqrafiyalarında terminologiya sahəsinin yaranması və təşəkkülü məsələləri nəzərdən keçirilib obyektiv təhlil aparılmışdır. Bütün bunlar sonrakı əsərlərində bu elmin nəzəri problemlərinin konturlarının müəyyənləşdirilməsinə gətirib çıxardı.

Sayalı xanım prof. B.Çobanzadə, prof.M.Qasımov kimi görkəmli Azərbaycan dilçilərinin terminologiya sahəsindəki nəzəri fikirlərinə diqqətlə və hörmətlə yanaşmaqla 40 ilə yaxındır ki, bu sahədə elmi-nəzəri əsərlər yazmış, müasir dövrümüzdə terminyaratma prosesində ümumxalq dili əsasında yaranmış terminlərin təqdim etmiş, dilimizin dialekt və şivələrində işlənən söz və ifadələri zəngin xəzinə mövqeyində götürmüş, ədəbi dilimizin teminyaratma yolları sırasında bu üsulu daha gərəkli hesab etmişdir. S.Sadıqovanın terminlərin yaranmasında beynəlmiləl və alınma sözlərdən bəhrələnməyə yanaşma tərzi də öz yeniliyi ilə seçilir. Alimin beynəlmiləl və alınma terminlərin spesifikası, struktur-semantik xüsusiyyətləri, qoşa terminlər, alınmaların terminologiyada leksik-funksional paralelliyi, terminlərin semantikası və. b məsələlər haqda mülahizə və qənaətləri də öz elmi sanbalı və yeniliyi ilə bu sahəni zənginləşdirmək işində xüsusi dəyər kəsb edir. Bütün bunlar göstərir ki, Sayalı Sadıqova elmdə öz dəsti-xətti olan yüksək dil duyumuna malik zəngin elmi potensiallı, perspektivli alimlərimizdəndir.

S.Sadıqovanın dilçi kadrların hazırlanmasında da dəyərli xidmətləri vardır. Bu günədək 16-ya yaxın gənc onun elmi rəhbərliyi altında müdafiə etmişdir. Cavan alimin nümunəvi ailəsi vardır. Həyat yoldaşı Rasim Həsənov nüfuzlu alimdir, iqtisadiyyat sahəsində professordur.

Sayalı Sadıqova müasir dilçiliyimizin ən aktual məsələləri barəsində respublikanın ayrı-ayrı mətbuat orqanlarında, nəşrlərdə maraqlı məqalələr dərc etdirir və televiziya-radio verilişlərində məzmunlu çıxışları ilə ictimaiyyətin diqqətini cəlb edir. Alimin elmi fəaliyyəti ilə yanaşı, onun ictimai həyatımızda da təqdir olunan işləri, xidmətləri vardır. O, Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının Ekspert Şurasının, Respublika Elmi Tədqiqatların Təşkili və Əlaqələndirmə Şurasının üzvü və AMEA Rəyasət Heyəti yanında "Terminologiya məsələləri" toplusunun redaktorudur. Professor Sayalı Sadıqova ömrünün və elmi fəaliyyətinin çiçəklənən bir dövrünü yaşayır. Onun 60-cı baharı bu günlərdə tamam olur. Yorulmaz tədqiqatçı, zəhmətkeş alim, səmimi və xeyirxah insan, genişürəkli, həssas qəlbli ana Sayalı xanımı bu münasibətlə təbrik edir, ona yaradıcılıq işlərində uğurlar, şəxsi həyatında xoş müjdələr, sevinclər diləyirik.

***İsmayıl Məmmədov***
***AMEA Nəsimi adına Dilçilik İnstitutu***
***Tətbiqi dilçilik şöbəsinin müdiri, professor***

# GÖRKƏMLİ ALİMİN LEKSİKOQRAFİK TƏDQİQATLARI

Dilçiliyin bir sıra sahələri ilə bağlı tədqiqatlar aparan, filologiya elmləri doktoru, professor Sayalı Sadıqova çox zəngin və məhsuldar bir yaradıcılığa malik alimdir. Onun elmi fəaliyyət sahəsi rəngarəng, tədqiqat meydanı geniş və əhatəlidir, çoxsayda olan əsərləri elmiliyi, professionallığı ilə seçilir, müəllifin dərin, sərrast elmi təfəkküründən xəbər verir. Görkəmli alimin ümumi və Azərbaycan dilçiliyinin aktual problemləri ilə bağlı 26 monoqrafiyası, 340-dan artıq elmi məqaləsi nəşr edilmişdir. Bu əsərlərin bir qismi Azərbaycanda, bir qismi isə xarici ölkələrdə nəşr edilmişdir. Alimin üç cildlik "Dilçiliyin nəzəri problemləri", "Azərbaycan ədəbi dilinin zənginləşmə mənbələri və inkişafı", "Azərbaycan dilinin terminologiyası" və s. kitabları milli dilçilik xəzinəsinin ən kamil və dəyərli incilərindəndir. Professor Sayalı Sadıqovanın elmi yaradıcılıq diapazonu olduqca dərin və əhatəlidir. Çoxsaylı əsərlərində bütöv bir elmi kollektivin görəcəyi işin zəhmətinə qatlaşaraq Azərbaycan dilçiliyinin ehtiva dairəsi olduqca geniş olan problemləri barədə tədqiqatlar aparmış, filologiyamıza dəyərli töhfələr bəxş etmişdir.

Onu bir dilçi-filoloq kimi xarakterizə edən əsas məziyyətlərdən biri də ondan ibarətdir ki, o, terminologiya problemləri ilə bərabər Azərbaycan dilçiliyinin bütün sahələri ilə bağlı tədqiqatlar aparmış, ən aktual

məsələlərə dair öz fikir və mülahizələrini şərh etmişdir. Bu baxımdan onun lüğətçiliklə bağlı əsərləri də xüsusi maraq doğurur. Təcrübə və nəzəriyyəni professionallıqla birləşdirən, vəhdət halında götürən tədqiqatçı nəzəri əsərlərlə yanaşı, elmin müxtəlif sahələri ilə bağlı nəşr olunan lüğətlərinin redaktoru və ön sözünün müəllifidir. Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Terminologiya Komissiyasının fəaliyyəti nəticəsində leksikoqrafik işlərin daha mükəmməl aparılması üçün əlverişli şərait yaradılmış, lüğətçiliyimizin təkcə praktik əsasları deyil, həmçinin nəzəri problemlərinin araşdırılması sahəsində çox mühüm işlər aparılmışdır. Terminoloji lüğətlərin bazası əsasında Azərbaycan ədəbi dilinin formalaşması və inkişafı sahəsində uzun illərdən bəri aparılan iş təcrübəsi dilçilikdə əsas istiqamətlərdəndir. Bəllidir ki, elmlərin inkişafı terminşünaslıqda öz inikasını tapır. S.Sadıqova uzun müddətdir ki, bu sahəyə rəhbərlik edir və elmin-texnikanın müxtəlif sahələri ilə bağlı nəşr olunan terminoloji lüğətlər təkcə Respublikamızda deyil, türkdilli dövlətlər tərəfindən də rəğbətlə qarşılanır. Onun bu sahədəki təcrübəsi elmin müxtəlif sahələrinin terminologiyasının nizama salınmasında mühüm rolu olmuşdur. Eyni zamanda ədəbi dilin zənginləşməsində terminoloji lüğətlər zəngin mənbədir. S.Sadıqovanın ilk tərtib etdiyi lüğət 1998-ci ildə nəşr olunmuşdur. Fizika-riyaziyyat terminlərinin inkişaf tarixi, yaranma mənbələri, üsulları, beynəlxalq ter-

minlər, onların terminoloji lüğətlərdə verilməsi qaydaları tədqiq edilmiş və həmin sahə ilə bağlı "İzahlı fizika-riyaziyyat terminləri lüğəti"(Bakı, Elm, 1998) nəşr olunmuşdur.

Müəllifin elmi yaradıcılığında nəzəriyyə ilə tətbiqi məsələlər qarşılıqlı əlaqədə aparılır. Hazırkı dövrdə mətbuatda, elmi-texniki ədəbiyyatlarda işlənən yeni terminlər toplanaraq iki cilddə "İzahlı yeni terminlər lüğəti" nəşr olunmuşdur. Birinci cilddə ( İzahlı yeni terminlər lüğəti, Bakı, Elm, 2015, 242 səh) 2500, ikinci cilddə ( İzahlı yeni terminlər lüğəti, Bakı, Elm, 2018, 240 səh) 2700 yeni termin toplanmış və izahı verilmişdir. Cəmiyyətin inkişafı, elmi-texniki tərəqqi, ictimai-siyasi dəyişikliklərlə bağlı yeni yaranan terminlər dilin leksik sistemini zənginləşdirir. Qloballaşma şəraitində elmin, texnikanın inkişafına uyğun olaraq dilimizdə müxtəlif sahələrlə (iqtisadiyyat, informatika, texnika) bağlı yeni terminlər yaranır. Yeni terminlərin yaranması, termin yaradıcılığı prosesi terminoloji leksikanın inkişafını sürətləndirir. Yeni terminlər isə ən çox tədqiqat işi aparılan zaman, ictimai-siyasi həyatda baş verən dəyişikliklərlə bağlı, həmçinin elmi-texniki ədəbiyyatların tərcüməsi prosesində yaranır. Bu nəzərə alınaraq onun tərəfindən tərtib edilən "İzahlı yeni terminlər lüğəti"ndə ("Elm" nəşriyyatı, Bakı, 2018, 240 səh.) Azərbaycan dilində işlənən, yeni yaranmış 2700 termin toplanmış və onların izahı verilmişdir. Dildə yeni yaranan anlayış və məfhumların sis-

temləşdirilməsi və qaydaya salınması baxımından lüğət olduqca əhəmiyyətlidir. Tərtib edilən lüğətdə müxtəlif sahələrə – iqtisadiyyat, informatika, dilçilik, geologiya, diplomatiya və s. aid yeni yaranan terminlər, yəni indiyə qədər dilin lüğət tərkibində öz əksini tapmayan terminlər toplanmış və onların izahı verilmişdir. Müəllifin qeyd etdiyi kimi terminologiyanın inkişaf mənbələrindən birini təşkil edən alınmaların izafiliyi alınma terminlərin seçilməsinə, işlənməsinə xüsusi diqqət yetirməyi tələb edir. Hazırda mətbuatda, radio və televiziyada onlarla, yüzlərlə yeni terminlər işlədilir. Bunlar toplanılır, orfoqrafiyası müəyyənləşdirilir.

S. Sadıqovanın rəhbərliyi altında nəşr olunan və eyni zamanda tərtibçisi olduğu "İzahlı dilçilik terminləri lüğəti" dilçiliyin ümumi anlayışlarının, Azərbaycan dilçiliyinin məcmusudur. Lüğət ondan istifadə edənlərin diqqətini bir neçə baxımdan cəlb edir: 1) dil barədə elmin tərkib hissəsi olaraq; 2) məlumat ədəbiyyatının başlıca elementlərindən biri kimi.

Məlumat funksiyasını əhatə edən lüğət tərkibində müxtəlif qrup terminlər izah olunmuşdur: 1) ənənəvi linqvistik terminoloji vahidlər, əsas fonetik, fonologiya, morfemika, sözyaradıcılığı, leksika, morfologiya və sintaksisin əsas anlayışlarını ifadə edən terminleksemlər; 2) dilçilik nəzəriyyəsinə aid terminlər; 3) müasir linqvistik tədqiqatlarda işlənən terminlər; 4) terminleksemlər, dilçiliyin tədqiqat metodları ilə əlaqədar; 5) linqvoüslubi terminologi-

ya; 6) mətnin linqvistik interpretasiyası prosesində istifadə olunan terminlər; 7) ritorikaya, nitq mədəniyyətinə aid terminlər; 8) psixolinvistik terminlər; 9) koqnitiv-praqmatik paradiqmanı əks etdirən terminlər və s.

Hər bir dilçilik termininin lüğət məqaləsində (maddəsində) formalaşdırılması prinsipinə əməl olunmuşdur. Lüğət məqalələrində dilçilik terminlərinin definisiyası verilmişdir, izah və şərhlər hər bir termin və terminoloji ifadənin məzmun və mahiyyətini dolğunluğu ilə əks etdirir; Terminlər lüğətdə əlifba sırası ilə düzülmüşdür. Terminin fakültativ elementi dırnaq içinə alınmışdır. Bu lüğətdə elmi və metodiki prinsiplər ön plana çəkilmişdir. Müxtəlif linqvistik məktəblər müxtəlif sayda linqvistik anlayışları özündə ehtiva edən terminləri formalaşdırmışdır. Buna görə də linqvistikanın metadil problemi lüğətdə öz əksini tapmışdır.

Azərbaycan dilçilik terminlər lüğəti linqvistikanın nəzəriyyəsi və tarixi məsələləri, qabaqcıl dilçilik təcrübəsi sahəsində zəruri olan leksik-terminoloji vahidləri əhatə edir. Dilçilik terminləri lüğətinə yalnız milli terminlər deyil, həmçinin rus və Avropa mənbəli terminlər də daxil edilmiş, bu da onu ensiklopedik bilik mənbəyi kimi daha da zənginləşdirmişdir. Hər bir lüğət məqaləsində müxtəlif quruluşda olan dilçilik terminlərinin əsasən məzmunu açılır.

Lüğət məqalələrində hər bir terminin sabitləşmə potensialı artmış və bu yolla dilin terminoloji sistemi

möhkəmlənmişdir. Lüğət məqalələri üçün seçilmiş dilçilik terminlərində dilin öz daxili qanunauyğunluqları ilə yanaşı, müasir linqvistik elmin tələbləri səviyyəsində işlənmə zəruriliyi nəzərə alınmışdır. Lüğətdə terminlərinin verilməsi iki istiqamətdə aparılmış, bir tərəfdən öz milli, bir tərəfdən də alınmalar hesabına bu sahədə yaranan terminlər toplanmış, sistemə salınmışdır. Dilçilik elmi ilə bağlı dərsliklərdə, monoqrafiyalarda öz əksini tapan terminlər toplanaraq lüğətdə verilmiş, izahı göstərilmişdir. Bu da Azərbaycan dilində dilçilik terminologiyasının formalaşması və inkişafını təmin edir. Azərbaycan dilçiliyində terminologiya sahəsində, onun nəzəri və praktik məsələləri ilə əlaqədar ən çox araşdırmalara sahiblik edən S.A.Sadıqova olmuşdur. S.Sadıqova həmin problemlə əlaqədar müntəzəm məşğul olmuş, bu elmin Azərbaycanda nəzəriyyəsini inkişaf etdirmişdir. Lüğətdə də dilçilik terminləri sözün həqiqi mənasında, qaydaya salınmışdır, müəyyən qayda və prinsiplər çərçivəsində təqdim olunmuşdur. *Lüğətdə dilçiliyin müxtəlif sahələri – müasir dil, dil tarixi, dialektologiya, lüğətçilik, üslubiyyat, nitq mədəniyyəti, onomastika, müqayisəli və tətbiqi dilçiliklə bağlı 8000 termin toplanmış və izahı verilmişdir.* Dilçilik elminin müasir inkişaf səviyyəsi, yeni-yeni istiqamətlərin təşəkkülü, elmlərin inteqrasiyası və diferensiyasının nəticəsi olaraq dilçiliyin həmhüdud sahələrinin inkişafı yeni terminlərin yaranmasına səbəb olur. Hazırda bu proses davam etməkdədir.

Bu terminlərin ifadə olunmasında dilin daxili imkanları əsasında termin yaradıcılığı ilə paralel terminalma da sürətli forma almışdır. Terminologiyada gedən prosesləri səciyyələndirən müasir dövrdə əsas cəhətlərdən biri beynəlmiləl terminlərin sayının sürətlə artmasıdır. Dilçilik elminin sürətli inkişafı, yeni dilçilik sahələrinin yaranması bu sahədə yaranan terminlərin toplanmasını, onların sistemləşdirilməsini və izahlı dilçilik terminləri lüğətinin tərtibini zəruri edir. Dilçiliyin müxtəlif sahələri ilə bağlı aparılan tədqiqatlar da hazırda yeni izahlı lüğətin tərtibi üçün zəmin yaradır. Azərbaycan dilinin dilçilik terminologiyasının nizama salınmasına kəskin ehtiyac duyulur. Yeni lüğətin hazırlanmasında indiyə qədər hazırlanmış lüğətlər və nəşr olunmuş tədqiqat əsərləri mənbə kimi götürülmüşdür. Hazırkı lüğət eyni adlı 2018-ci ildə çap edilmiş lüğətin təkmilləşdirilmiş nəşridir. Lüğətin yeni nəşrinin əhatə dairəsi əsaslı şəkildə genişləndirilmişdir. Bəzi anlayışların izahı yenidən, daha konkret şəkildə verilmişdir. Hər hansı konkret anlayışları ifadə edən terminlər elm sahələrində tədqiqat prosesində yaranır. Yaranan yeni terminlər öz izahını, definitiv tərifini tədqiqatlarda tapır və məfhumlara ad verilərkən onların tədqiqat prosesindəki funksiyası nəzərə alınır. Bu funksiyalar əsasında termin təyin edilir və adlandırılır. Lüğət tərtib olunan zaman indiyə qədər olan tədqiqatlarda tərifi, yaxud da izahı verilmiş terminlər toplanaraq vahid mənada qeyd edilir. Beynəl-

xalq səviyyədə işlənən beynəlmiləl terminlər dil işarəsi ilə bərabər definisiyanı da müxtəlif dillərə gətirir. Dilçilik terminləri lüğəti tərtib olunan zaman dilçiliklə bağlı belə beynəlmiləl terminlər olduğu kimi saxlanılmışdır. Terminlər qruplaşdırılarkən konkret termin sistemliliyi, normalaşdırma, vahid normaya salma prinsipi əsas götürülmüşdür. Lüğətdə dilçilik terminləri toplanıb sistemləşdirilmiş, lüğətə daxil edilən vahidlərin semantik xüsusiyyətləri dəqiqləşdirib izah edilmişdir. İzah zamanı terminlərin ənənəvi tərifləri və izahı olduğu kimi saxlanılmışdır. Tərtib edilmiş lüğətdə elmi-tədqiqat və tədris prosesində tez-tez rast gəlinən terminlərin şərhinə geniş yer verilmişdir. Lüğətə dilçilikdə vahid formada qəbul edilmiş və eyni mənada işlənən terminlər daxil edilmişdir. Lakin bəzi terminlərin izahında bir-birindən fərqli fikirlər də mövcuddur. Belə terminlərin izahında, bir sıra mübahisəli məsələlərin həllində son tədqiqatlar əsas götürülmüşdür. Hazırlanmış lüğətdə indiyə kimi tərtib olunmuş terminoloji lüğətlərin təcrübəsindən istifadə edilərək, mövcud və yeni yaranan terminlər toplanmış və izahı verilmişdir. Uzun illər və gərgin zəhmətinin məhsulu olan lüğət istifadəçilərin ən yaxın köməkçisidir. Müəllifin tərtib etdiyi lüğətlərdən biri də Şəbnəm Həsənli-Qəribova ilə birlikdə tərtib etdiyi “Azərbaycanca-türkcə izahlı dilçilik lüğəti” dir. Dilçilik elminin sürətli inkişafı, onun yeni sahələrinin yaranması bu sahədə yaranan yeni anlayışların müxtəlif türk dil-

lərində adlandırılmasını, onların sistemləşdirilməsini ön plana çəkir. Bu nəzərə alınaraq, ilk dəfə olaraq türk və Azərbaycan dilində dilçilik terminləri toplanmış və izahı verilmişdir. Terminlərin izahında dəqiq, sadə izahlara üstünlük verilmişdir. Lüğətin tərtibi zamanı dilçilik terminologiyasında işlənən müxtəlif mənbəli terminlər toplanmış, onların mənası izah edilmiş, mənşəyi, mənbə dildəki mənası, əsas sözün mənasının aydın olması üçün misallar verilmişdir. Dilçilik terminologiyasının mühüm bir hissəsini həm Azərbaycan, həm də türk dilində ortaq terminlər təşkil edir. Lüğətdə belə ortaq terminlər mənbə dildə olduğu kimi mənaları saxlanılmışdır. Belə yanaşma terminlərin adlandırılması zamanı onların ilkin mənalarının nəzərə alınması zəruriliyini və etimologiyasını müəyyənləşdirməyə imkan verir. Lüğətə mənşəcə latın, yunan, eləcə də ingilis, fransız, alman dillərindən bu dillərə keçən alınma terminlər, yazılışca və mənaca fərqli terminlər də daxil edilmişdir. Həmin terminlər qısa izah edilərək, onların mənaca fərqli variantları verilmiş, oxşar mənalar isə olduğu kimi saxlanılmışdır. Türk dilində qarşılığı olmayan, nadir istifadə olunan terminlərin orijinaldakı formaları və həmin ifadələrin qısa izahlı qarşılığı verilmişdir.

Sayalı Sadıqova yalnız terminoloji lüğətlərin deyil, eyni zamanda "Azərbaycan dilində şəxs adlarının izahlı lüğəti"(Bakı, Elm, 2016, 233 səh.) kimi bir sıra lüğətlərin tərtibçisidir. Onun tərtib etdiyi "Azərbaycan

dilində şəxs adlarının izahlı lüğəti" Respublikamızda fəaliyyət göstərən qeydiyyat idarələrində yeni doğulan körpələrə adların qoyulmasında əsas vəsaitdir. Müəllifin qeyd etdiyi kimi insan adlarının yaranma tarixi çox qədimdir. İlk insan qrupları və ailə formalaşandan sonra tayfa, nəsil, yaxud ailə içində adamların sayı artdıqca onları fərqləndirmək, fərdiləşdirmək üçün adlar vermək zərurəti yaranmışdır. Adlar məhz bu zəruri tələbatdan törəmişdir. Bu mənəvi dəyərlər uzun dövrlərin məhsuludur. Yaranan hər hansı bir ad xalq tərəfindən qəbul edildikdən sonra adlar sistemində xüsusi yer tutur və istifadə edilir. Buna görə də "Azərbaycan dilində şəxs adlarının izahlı lüğəti"ndə adlar iki qrup altında verilmişdir: qadın adları; kişi adları; Bu qrupların hər biri müəyyən prinsip və tələblərə müvafiq olaraq reallaşıb dildə işlənir. Lüğətdə Azərbaycan dilinin adlar sistemində işlənən 6 minə yaxın ad toplanmış və onların izahı verilmişdir. Azərbaycan dilində adlar sistemi daima inkişafdadır. Yeni adların verilməsi şəxs adları sistemini zənginləşdirir. Müasir dövrdə körpələrə verilən adlar seçilir, təhlil edilir. Adların qoyulması ictimai bir hadisə hesab edilir, çünki hər bir ad xalqın milli mənəvi dəyərini özündə əks etdirir. Uşağa ad seçmək sərbəstdir. Lakin sərbəstlik qayda-qanunlar əsasında həyata keçirilir. Adseçmə xalqın müasir mədəni tələblərinə və Azərbaycan ədəbi dilinin yazı qaydalarına uyğun olaraq verilmişdir. Bu baxımdan lüğət hər bir vətəndaşa adlar seçməkdə, məna-

sını öyrənməkdə köməkçidir və onların ehtiyacını ödəməkdə ən faydalı məxəzdir. İnanırıq ki, ömrünün müdriklik yaşına qədəm qoyan professor Sayalı Sadıqova milli filoloji fikrin inkişafına öz töhfələrini verəcəkdir.

***Telman Quliyev***
***Gəncə Dövlət Universiteti***
***Azərbaycan dili kafedrasının müdiri,***
***filologiya elmləri doktoru, professor***


SAYALI SADIQOVA
İZAHLI TERMİNLƏR LÜĞƏTİ
I CİLD
Dilçiliyin NƏZƏRİ PROBLEMLƏRİ
Dilçiliyin NƏZƏRİ PROBLEMLƏRİ
Dilçiliyin NƏZƏRİ PROBLEMLƏRİ
İZAHLI YENİ TERMİNLƏR LÜĞƏTİ
II CİLD
AZƏRBAYCAN DİLİNDƏ TERMİNOLOGİYANIN STANDARTLAŞDIRMA FORMALARI
AZƏRBAYCAN DİLİ TERMİNOLOGİYASININ NƏZƏRİ PROBLEMLƏRİ
DİLÇİLİK ELMİNDƏ AFAD QURBANOV İRSİ
ТЕРМИНОЛОГИЧЕСКИЕ СЛОВОСОЧЕТАНИЯ В АЗЕРБАЙДЖАНСКОМ ЛИТЕРАТУРНОМ ЯЗЫКЕ
MÜSTƏQİLLİK İLLƏRİNDƏ AZƏRBAYCAN DİLİNDƏ TERMİNOLOGİYANIN İNKİŞAFI
S. SADIQOVA, N. HÜSEYNOVA, S.NOVRUZOVA, Ş.HƏSƏNLİ-QƏRİBOVA
İZAHLI DİLÇİLİK TERMİNLƏRİ LÜĞƏTİ
SAYALI SADIQOVA
AZƏRBAYCAN DİLİNİN TERMİNOLOGİYASI
AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ VƏ MİLLİ ƏDƏBİ DİLİN İNKİŞAF TARİXİ
(1918-2018)


SAYALI SADIQOVA
SİMA QULİYEVA
İZAHLI TERMİNLƏR LÜĞƏTİ
I CİLD
İZAHLI YENİ TERMİNLƏR LÜĞƏTİ
II CİLD
AZƏRBAYCAN DİLİNDƏ ŞƏXS ADLARININ İZAHLI LÜĞƏTİ
İZAHLI DİLÇİLİK TERMİNLƏRİ LÜĞƏTİ
S. SADIQOVA, N. HÜSEYNOVA, S.NOVRUZOVA, Ş.HƏSƏNLİ-QƏRİBOVA
İZAHLI DİLÇİLİK TERMİNLƏRİ LÜĞƏTİ


Бакы - 1997
SAYALI SADIQOVA
AZƏRBAYCAN DİLİ TERMİNOLOGİYASININ NƏZƏRİ PROBLEMLƏRİ
САЯЛЫ САДЫГОВА
ТЕРМИНОЛОГИЧЕСКИЕ СЛОВОСОЧЕТАНИЯ В АЗЕРБАЙДЖАНСКОМ ЛИТЕРАТУРНОМ ЯЗЫКЕ
SAYALI SADIQOVA
Dilçiliyin
NƏZƏRİ PROBLEMLƏRİ
I cild
SAYALI SADIQOVA
Dilçiliyin
NƏZƏRİ PROBLEMLƏRİ
II cild
SAYALI SADIQOVA
Dilçiliyin
NƏZƏRİ PROBLEMLƏRİ
III cild


SAYALI SADIQOVA
AZƏRBAYCAN DİLİNDƏ TERMİNOLOGİYANIN TƏŞƏKKÜLÜ VƏ İNKİŞAFI
Sayalı Sadıqova
MÜASİR AZƏRBAYCAN ƏDƏBİ DİLİNDƏ TERMİN YARADICILIĞI PROSESİ
SAYALI SADIQOVA
AZƏRBAYCAN DİLİNİN TERMİNOLOGİYASI
SAYALI SADIQOVA
AZƏRBAYCAN DİLİNDƏ TERMİNOLOGİYANIN STANDARTLAŞDIRMA FORMALARI
SAYALI SADIQOVA
MÜSTƏQİLLİK İLLƏRİNDƏ AZƏRBAYCAN DİLİNDƏ TERMİNOLOGİYANIN İNKİŞAFI
Möhsün Nağısoylu
Sayalı Sadıqova
AZƏRBAYCAN ƏDƏBİ DİLİNİN ZƏNGİNLƏŞMƏ MƏNBƏLƏRİ VƏ İNKİŞAFI


SAYALI SADIQOVA
AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ VƏ MİLLİ ƏDƏBİ DİLİN İNKİŞAF TARİXİ
(1918-2018)
AZƏRBAYCAN DİLÇİLİYİ MÜNTƏXƏBATI
II cild
Bakı 2013
ULDUZLAR SÖNMÜR ŞƏHİDLƏR ÖLMÜR
SAYALI SADIQOVA
DİLÇİLİKDƏ AĞAMUSA AXUNDOV FENOMENİ
SAYALI SADIQOVA
DİLÇİLİK ELMİNDƏ AFAD QURBANOV İRSİ

# MÜNDƏRİCAT


Yaradıcılıq istiqamətləri ............................................... 10
Ömrün əsas illəri.......................................................... 35
Biblioqrafik göstəricilər................................................ 45
Elmi əsərləri................................................................ 45
Kitablar ......................................................................... 45
Məqalələr ...................................................................... 49
Redaktə etdiyi əsərlər .................................................... 84
Əsərləri haqqında yazılanlar.......................................... 97
Rəhbərlik etdiyi dissertasiyalar ................................... 100
Rəsmi opponentlik etdiyi dissertasiyalar..................... 102
Təltifləri ..................................................................... 106
Haqqında yazılanlardan seçmələr ........................ 108

# SAYALI
# ALLAHVERDİ QIZI
# SADIQOVA

***B İ O B İ B L İ O Q R A F İ K   G Ö S T Ə R İ C İ***

**Bakı – "Elm" – 2020**

Nəşriyyatın direktoru: *Səbuhi Qəhrəmanov*
Kompüter tərtibçisi: *Nasir Alışanlı*
Bədii tərtibat: *Şəlalə Məmməd*

Formatı: 84x108 $^{1}/_{32}$
Həcmi: 9,75 ç.v.
Tirajı: 300

Ünvan: Bakı şəh., İstiqlaliyyət küç. 28